AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

26 oktyabr 2017-ci il № 73-76 (9167) www.seanews.az Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### GƏMİÇİLİKDƏ "TƏHLÜKƏSİZLİK GÜNÜ" KEÇİRİLİB



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də "Təhlükəsizlik günü" keçirilib.***

Tədbirdə keçən rüb yazılmış "Müşahidə kartları"nın nəticələri əsas müzakirə mövzusu olub.

Səh. 2

### KURIK LİMANINDAN BAKI LİMANINA GÖNDƏRİLƏN YÜKÜN HƏCMİ BİR MİLYON TONA ÇATDIRILIB



***Qazaxıstanın Kurık limanından Bakı Beynəlxalq Dəniz Ticarət Limanına göndərilən yüklərin həcmi bir milyon tona çatdırılıb.***

Səh. 3

### "KAPİTANLIQ FƏTH ETMƏK İSTƏDİYİM ƏN UCA ZİRVƏ İDİ"



***Həqiqətən də dənizçi olmaq asan deyil. Dumanı var, fırtınası var, həsrəti var... Hər kəs bacarmır bu işi. Dənizi sevməyənlər ümumiyyətlə bacarmır, bacarmazlar da...***

**Elə müsahibim - Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin qabaqcıl kapitanlarından olan Şakir Dadaşov da bu qənaətdədir. Hesab edir ki, dənizi sevmək başlıca şərtdir.**

Səh. 4

### "BƏRDƏ" GƏMİ-BƏRƏSİNİN YENİDƏN TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNDA İSTİSMARINA START VERİLİB



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Nəqliyyat donanmasına məxsus "Bərdə" gəmi-bərəsinin təmiri yekunlaşıb. Gəmi sınaq üzüşündən uğurla çıxıb.***

Gəmi-bərənin sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, müxtəlif təyinatlı nasoslar, köməkçi və baş mühərriklər əsaslı təmir olunub. Bəzi detallar yeniləri ilə əvəzlənib.

Səh. 5

### İTALİYADA AZƏRBAYCANIN İPƏK YOLUNUN BƏRPASINA VERDİYİ TÖHFƏLƏRDƏN DANIŞILIB



***Roma şəhərində Türk Mədəniyyət Mərkəzi - Yunus Əmrə İnstitutunun İtaliya təmsilçiliyi, "Fondazione Ugo Spirito e Renzo De Felice" Fondu və "Eurosis Consulting" şirkətinin birgə təşkilatçılığı ilə "Yeni İpək yolu: İqtisadi və mədəni şəbəkənin qurulması" mövzusunda konfrans keçirilib.***

Səh. 6

### DƏNİZÇİ XANIM KİKBOKSİNQ ÜZRƏ ÇEMPİON OLDU



***21-22 oktyabrda Sərhədçi Olimpiya İdman Kompleksində Azərbaycan Kikboksinq Federasiyası və Bakı Şəhəri Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Kikboksinq üzrə Açıq Bakı Çempionatı keçirilib.***

Səh. 8



***İlin doqquz ayı arxada qalır. Bu doqquz ayda ölkəmiz uğurla və hərtərəfli inkişaf etmişdir. Bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur.***

…Baxmayaraq, dünya bazarlarında neftin qiyməti hələ də aşağı səviyyədədir, bu il biz qarşıya məqsəd qoymuşduq ki, valyuta ehtiyatlarımızı artıraq. Çünki bu, bizim iqtisadi və siyasi müstəqilliyimizin əsas şərtlərindən biridir. Xərclərimizin də artmasına və ölkə qarşısında duran vəzifələrin də çoxalmasına baxmayaraq, biz çalışırıq ki, bütün vəzifələri icra edək. Bunu etmək üçün əlbəttə ki, maliyyə resursları lazımdır. Valyuta ehtiyatlarımızdan qənaətlə istifadə etməyimiz, eyni zamanda, düzgün investisiya proqramımızın uğuru, əlbəttə, imkan verib ki, biz valyuta ehtiyatlarımızı artıraq. İlin 9 ayında Azərbaycanın valyuta ehtiyatları artıb, hazırda bu rəqəm 42 milyard dollar səviyyəsindədir. İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük. Ona görə bir daha qeyd etmək istəyirəm ki, valyuta ehtiyatlarımız, ümumiyyətlə, iqtisadi imkanlarımız müstəqilliyimizin əsas şərtlərindən biridir.

Bu gün biz özümüzü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilmişik, müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur. Ona görə 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız hesab edirəm ki, 9 ayın ən uğurlu nəticələrindən biridir.

Doqquz ayda həm Bakıda, həm bölgələrdə yeni iş yerlərinin yaradılması prosesi uğurla gedib. Həmin dövrdə 226 min yeni iş yeri yaradılıbdır ki, onlardan 171 mini daimi iş yeridir. Bu da işsizliyin aşağı səviyyədə saxlanmasına imkan verir. Bu, daimi proses olmalıdır. Çünki bizim əhalimiz artır və belə olan halda biz daim yeni iş yerlərinin yaradılması haqqında düşünməliyik.

…Bu il beynəlxalq arenada mövqelərimiz daha da möhkəmlənib. Bizim xarici əlaqələrimiz çoxşaxəlidir. Biz bütün ölkələrlə qarşılıqlı faydalı və bərabərhüquqlu münasibətlər qurmuşuq, buna nail olmuşuq. Bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli ölkə kimi tanınır. Xarici siyasətimiz də açıqdır, müstəqildir və bu da dünya birliyi tərəfindən böyük rəğbətlə qarşılanır.

…Bu il neft-qaz sektorunda çox əlamətdar hadisələr baş verib. Xüsusilə, neft sektorunda "Azəri-Çıraq-Günəşli" yatağının gələcəkdə işlənilməsi ilə bağlı yeni kontrakt imzalanmışdır. Kontraktın müddəti 2050-ci ilə qədər uzadıldı. Bu kontrakt bizim üçün daha da yaxşı şərtlərlə təmin edilmişdir. Baxmayaraq ki, "Əsrin kontraktı" da Azərbaycana çox böyük faydalar gətirdi. O vaxt üçün mümkün qədər ən gözəl şərtlər təmin edilmişdir. Ancaq indiki şərtlər bizim üçün daha əlverişlidir, daha da yaxşıdır. Bu şərtlərin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycanın iştirak payı 11 faizdən 25 faizə qaldırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə veriləcəkdir. Dövlət Neft Şirkəti yeni kontraktın podratçısı kimi iştirak edəcək və ölkəmizə xarici neft şirkətləri tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. Bu, çox gözəl şərtlərdir və "Əsrin kontraktı"nın uzadılması, yeni kontraktın imzalanması tarixi hadisədir.

Digər nəhəng layihə "Cənub Qaz Dəhlizi" layihəsidir. Bu istiqamətdə də işlər yaxşı gedir. "Şahdəniz-2" layihəsinin icrası 96 faiz səviyyəsindədir. Cənubi Qafqaz kəməri, hansı ki, qazımızı Gürcüstana qədər çatdırır, 98 faiz səviyyəsində icra edilibdir. TANAP layihəsi 82 faiz, TAP layihəsi isə 53 faiz səviyyəsində icra edilibdir. Bu rəqəmlər əslində göstərir ki, kontraktın uğurlu icrası təmin edilir.

Digər vacib olan sahələrdə də yaxşı nəticələr var. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi demək olar ki, başa çatıb. Yaxın vaxtlarda bu yolun rəsmi açılışı nəzərdə tutulur. Bu da tarixi layihədir. Yəni, Azərbaycanın iştirak etdiyi və bir çox hallarda təşəbbüskarı olduğu layihələr qlobal xarakter daşıyır. Onların əsas məqsədi və mahiyyəti ondan ibarətdir ki, bu layihələr, bu kontraktlar ölkəmizi gücləndirir. Azərbaycanın qüdrəti, iqtisadi potensialı, siyasi çəkisi, regional müstəvidə rolu artır və bu kontraktlar bizə böyük iqtisadi mənfəət, səmərə verir. Təsəvvür etmək mümkün deyil ki, əgər "Əsrin kontraktı" imzalanmasa idi, biz indi hansı vəsaitlə bütün bu abadlıq-quruculuq işlərini görə bilərdik. Düzdür, bu gün əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və biz əsas gücü bu istiqamətə yönəldirik. Ancaq onu da hamımız bilməliyik ki, əgər neft gəlirlərindən səmərəli şəkildə istifadə etməsəydik, Neft Fondunda böyük vəsaiti yığmasaydıq, infrastruktur layihələrinə və digər layihələrə yönəltməsəydik, əlbəttə, bizim indiki vəziyyətimiz kəskin şəkildə fərqlənə bilərdi.

Biz bütün bu işləri düşünülmüş şəkildə görmüşük, neftdən və qazdan gələn gəlirlər insan kapitalına yönəldilib, infrastruktur layihələrinin icrasına, özəl sektorun inkişafına istiqamətləndirilib. Eyni zamanda, bu layihələr ölkəmizin beynəlxalq arenadakı rolunu, çəkisini artırır. Bu gün bizim iştirakımız olmadan bu regionda heç bir layihə, hətta heç bir siyasi təşəbbüs reallaşa bilməz. Azərbaycan bu gün dünya miqyasında özünü güclü dövlət kimi təsdiqləyib, Əlbəttə ki, bu, bizim hamımızı çox sevindirir. Növbəti illərdə ölkəmizin qüdrəti daha da artacaq.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

*(Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən)*

# YENİ ZİRVƏLƏRƏ DOĞRU

## "AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-NİN YARANMASINDAN DÖRD İL ÖTÜR

***Dörd il bundan öncə iqtisadiyyatda köklü struktur islahatlarının davamı kimi mühüm addım atıldı. Bu dəfəki addım gəmiçilik sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin, tranzit potensialının gücləndirilməsi məqsədi daşıyırdı. Konkret desək, Prezident cənab İlham Əliyevin 22 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə mövcud iki donanma – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanması birləşdirilərək yenidən təşkil olundu. Yeni yaradılan qurum "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC adı ilə fəaliyyətə başladı.***






Ötən dörd il müddətində az iş görülmədi. Strateji inkişaf istiqamətlərinə əsasən ilk beş ildə həyata keçirilməsi planlaşdırılan bir çox hədəflərə qrafikdən əvvəl müvəffəqiyyətlə nail olundu.

### BEYNƏLXALQ SERTİFİKAT

Qazanılan ən mühüm nailiyyətlərdən biri gəmiçilik fəaliyyəti üzrə beynəlxalq sertifikatların alınması oldu. Məhz, sertifikatların alınması, ən əsası həmin sertifikatların tələblərinə uyğun fəaliyyətin təşkili məqsədilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" 2014-cü ildə bu sahədə beynəlxalq təcrübəyə malik Amerika Gəmiçilik Bürosunu ölkəmizə dəvət etdi. Bununla da sertifikatların alınması üçün tələb olunan prosedurların Gəmiçilikdə tətbiqinə başlanıldı. Personal üçün çoxsaylı təlimlər keçirildi. Büro Gəmiçiliyin fəaliyyətinin beynəlxalq idarəetmə standartlarına uyğunluğunun yoxlanması üçün auditlər apardı.

2016-cı ilin yanvarında Gəmiçiliyə beş illik müddətə uyğunluq sertifikatı verildi. Bu da o deməkdir ki, Azərbaycan gəmiçiliyi və onun gəmiləri İSO -9001 (keyfiyyətin idaəedilməsi), İSO -14001 (ekoloji idarəetmə), OHSAS -18001 (peşə təhlükəsizliyi və əməyin mühafizəsinin idarə edilməsi) və İSO-50001(enerji səmərəliliyi menecmenti) üzrə önəmli sertifikatlara malikdir. Bununla yanaşı, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin tabeliyində olan Azərbaycan Dövlət Dəniz Akademiyası və Təlim-Tədris Mərkəzi də Amerika Gəmiçilik Bürosunun sertifikatlarına layiq görüldü.

### ŞƏFFAFLIQ PRİNSİPLƏRİNƏ UYĞUN FƏALİYYƏT

Bu gün "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC öncül beynəlxalq şirkətlər arasında xüsusi çəkiyə malikdir. Qabaqcıl texnologiya və sistemlərin tətbiqi hər zaman ön planda durub. Bunun nəticəsidir ki, hazırda AXDG-də korporativ idarəetmə sistemi uğurla tətbiq olunur. Tam əminliklə demək olar ki, indi Gəmiçilikdə beynəlxalq və geniş təcrübəyə malik güclü komanda çalışır. Həmin komandanın böyük hissəsi isə gənclərdən ibarətdir.

*(Ardı 2-ci səhifədə)*

















# GƏMİÇİLİKDƏ "TƏHLÜKƏSİZLİK GÜNÜ" KEÇİRİLİB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də "Təhlükəsizlik günü" keçirilib.***

Tədbirdə keçən rüb yazılmış "Müşahidə kartları"nın nəticələri əsas müzakirə mövzusu olub. Bundan başqa, son beş ayda Gəmiçilikdə qeydə alınan qəzalar, yan ötmüş hadisələr, daxili audit və monitorinqlər barədə də danışılıb. Bununla yanaşı, dünya gəmiçilik şirkətlərində baş verənlər də nəzərdən keçirilib.

Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin rəisi Ələkbər Əzizli bildirib ki, Gəmiçilikdə təhlükəsizlik məsələləri daim diqqətdə saxlanılır. Departament rəisi ötən rüb "Bibiheybət" Gəmi Təmiri Zavodunda aparılan monitorinqlər əsasında qeydə alınan "Müşahidə kartları" haqqında da danışıb. Qeyd edib ki, müəssisədə rast gəlinən uyğunsuzluqlar analiz olunub və həlli istiqamətində xüsusi tapşırıqlar verilib.

Dəniz üzgüçülüyünün təhlükəsizliyi departamentinin rəis müavini Rövşən Dəmirov "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də təhlükəsizliklə bağlı keçirilən təlimlər və onların əhəmiyyəti haqqında ətraflı məlumat verib. O, təlimlərin hesabına son dörd ildə belə hadisələrin sayında azalmaların qeydə alındığını vurğulayıb.

Sonda çıxış edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev təhlükəsizlik mədəniyyətinin daha da inkişaf etdirilməsinin vacibliyini önə çəkib. Diqqətə çatdırıb ki, bununla bağlı bütün heyət çalışmalı, daha çox öyrənməli və öz təcrübəsini digərləri ilə bölüşməlidir. Çünki təhlükəsiz iş şəraitini təmin etmək əsas vəzifələrimizdəndir.

Bununla belə, Rauf Vəliyev aidiyyəti struktur rəhbərlərinə treninq və məşğələlərin davamlı və daha praktik keçirilməsi ilə bağlı tapşırıqlarını da verib.

Tədbirdə Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə mühəndisi Vaqif Bağırova səmərəli əmək fəaliyyətinə görə Gəmiçiliyin "Fəxri Fərman"ı təqdim edilib.

Toplantının sonunda müvafiq videoçarxlar nümayiş olunub, çıxışlar dinlənilib, rəy və təkliflər öyrənilib.

## GƏMİÇİLİYİN ƏMƏKDAŞININ "55 DƏRSƏ EXCEL" KİTABI NƏŞR OLUNUB




***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanması İnsan Resursları Xidmətinin rəisi Nahid Nəsirovun müəllifi olduğu "55 Dərsə Excel" kitabının 3-cü nəşri işıq üzü görüb.***

Nahid Nəsirovun sözlərinə görə, dərsliyin köməkliyi ilə hər kəs mürəkkəb əməliyyatları "Excel"də qısa müddətdə yerinə yetirə bilər.

Kitabda Excelin A-dan Z-ə bütün əmrləri (Macro xaric), 222 funksiyası izah edilib. Mündəricat və mövzuların yazılış ardıcıllığı proqramın əmrləri ilə uyğunluq təşkil edir. Bu da oxuculara qarşılarına çıxan problemlə bağlı anında köməklik etməyə imkan verir. Kitab sadə dildə, amma dərin bilikləri əhatə edəcək səviyyədə yazılıb.

## DƏNİZ QULDURLARI "DEMETER" GƏMİSİNƏ HÜCUM EDİBLƏR



***Hamburqdakı (Almaniya) "Peter Döhle Schiffahrts-KG" gəmiçilik şirkətinə məxsus "Demeter" konteynerdaşıyan gəmisi Nigeriyanın Port-Harkort limanından cənubda yerləşən Biafra körfəzində olarkən 8 dəniz quldurу həmin gəmiyə hücum edib.***

Beynəlxalq "Sea Guardian" agentliyi bildirir ki, cinayətkarlar sürətli motorlu qayıqdan gəmiyə keçib və heyət üzvlərindən 6 nəfərini, o cümlədən gəminin kapitanını oğurlayıblar.

Piratlar gəmini tərk edəndən sonra "Demeter" orada qalmış 12 heyət üzvü ilə yoluna davam edib. Bu şəxslər hücumdan zərər çəkməyiblər. Hazırda gəmi təhlükəsiz sulardadır.

Beynəlxalq Dəniz Bürosunun verdiyi məlumata görə, cari ilin ilk 9 ayı ərzində beynəlxalq sularda 121 piratlıq və silahlı qarət hadisəsi qeydə alınıb.

# YENİ ZİRVƏLƏRƏ DOĞRU

*(Əvvəli 1-ci səhifədə)*
















Beynəlxalq gəmiçilik statusunun əldə olunması istiqamətində görülən işlərdən biri də dünyanın aparıcı şirkətlərinin istifadə etdiyi SAP sisteminin tətbiqi ilə bağlıdır. Hazırda maliyyə uçotu, satış, maya dəyərinin formalaşdırılması, xəzinədarlıq, insan resurslarının və material ehtiyatlarının idarəsi kimi əməliyyatlar sözügedən sistem üzərindən həyata keçirilir. Tamamilə beynəlxalq maliyyə uçotu sisteminə keçid, hesabatların hazırlanmasında beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi şəffaflığın təminində də mühüm rol oynayır. Məhz, maliyyə hesabatlarının beynəlxalq auditi aparılarkən bu məqam diqqətdən qaçmayıb. Gəmiçiliyin fəaliyyətinin iki ili, eləcə də növbəti hər ili üçün müsbət audit rəyi verilib.

Gəmiçilik sahəsində şəffaflığın təmininə görə qazanılan uğurlar bununla yekunlaşmır. Beynəlxalq korporativ idarəetmə sisteminin tələblərinə uyğun şirkətdə bir sıra müvafiq idarəetmə funksiyaları da yaradılıb. Həmçinin, bir neçə vacib sənəd hazırlanıb. "Biznes Etikası Məcəlləsi"nin hazırlanaraq tətbiqi, korrupsiya ilə mübarizəyə dair təlimatın təsdiqlənməsi, daxili araşdırmaların aparılması ilə bağlı təlimatın işlənilməsi buna misaldır. Daha bir örnək kimi isə "Qaynar xətt" mərkəzinin fəaliyyətini göstərmək olar. Gəmiçiliyə dair müxtəlif əməliyyatların bürokratik əngəl olmadan icrası üçün bir neçə əsas istiqamət üzrə elektron sistem yaradılıb. Gəmilərdə kəsintisiz rabitə sistemi qurulub.

### MADDİ-TEXNİKİ BAZA

Gəmiçilik gənc kadrların yetişdirilməsinə də xüsusi həssaslıqla yanaşıb. Əməkdaşların motivasiyası hər zaman diqqət mərkəzində olub. Sosial korporativ məsuliyyət çərçivəsində ölkədə müxtəlif layihələrin həyata keçirilməsində də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rolu danılmazdır.

Digər tərəfdən, maddi-texniki bazanın gücləndirilməsi qarşıya qoyulan hədəflərin önündə gəlib. Dünyada baş verən yeni çağırışlara hazır olmaq və rəqabətə davamlı xidmət göstərmək üçün bu işin önəmi daim nəzərə alınıb.

Gəmiçiliyə və gəmiçilərə dövlət başçısının göstərdiyi xüsusi diqqəti də unutmaq olmaz. Davam edən qlobal iqtisadi böhran, dünya birjalarında neftin qiymətinin kəskin aşağı düşməsi fonunda ümumi beynəlxalq ticarət dövriyyəsinin kəskin azalmasına və bunun gəmiçilik sahəsində müəyyən problemlər yaratmasına baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanda gəmiçiliyin inkişafını diqqət mərkəzində saxlayır. Bu da Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanmasının müasir tələblərə cavab verən gəmilərlə yenilənməsinə geniş imkan yaradır. Məhz, dövlətimizin başçısının gəmiçilik sahəsinə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, təkcə son dörd ildə 20-ə yaxın gəmi donanmaya əlavə edilib.

Bundan başqa, Bakı Gəmiqayırma Zavoduna dörd gəmi-vaqon-TIR və sərnişin daşınması üçün nəzərdə tutulan yeni nəsil iki "Ro-Pax"/Bərə və iki tankerin tikintisi üzrə yeni sifariş verilib.

Donanmanın yenilənməsi istiqamətində aparılan işlər Gəmiçiliyin təsdiq olunmuş strateji inkişaf proqramına, həmçinin "2016-2020-ci illərdə Azərbaycanda gəmiçiliyin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilir. Dövlət Proqramı ilə Xəzər hövzəsində və Xəzərdən kənarda beynəlxalq standartlara uyğun daşıma xidmətlərinin göstərilməsi, donanmanın yükdaşıma bazarlarındakı tələbata uyğun yenilənməsinin davam etdirilməsi, gəmi təmiri bazasının gücləndirilməsi, institusional islahatların davamı, gəmiçilik sahəsində yüksək ixtisaslı yerli kadrların hazırlanması nəzərdə tutulur.

### XƏZƏRDƏN KƏNARDA ÜZƏN GƏMİLƏRİMİZ

Ortamüddətli perspektivə (6 il) yönəlik hədəflərdən biri də Azərbaycan gəmiçiliyinin Xəzərdən kənar beynəlxalq sularda fəaliyyətini bərpa etməsi idi. Bu istiqamətdə aparılan intensiv işlər də qısa müddətdə faydasını verdi. 2014-cü ildə Qara və Aralıq dənizi hövzələrində iki Azərbaycan gəmisi üzməyə başladı. Daha sonra belə gəmilərin sayı artırıldı.

Hazırda Xəzərin hüdudlarından kənarda Azərbaycan bayrağı altında fəaliyyət göstərən gəmilərin sayı 11-ə çatdırılıb. Növbəti illlərdə də doğma sahillərdən uzaqlarda üzən gəmilərimizin sayı artırılacaq.

### KADR HAZIRLIĞI

Regionda dənizçilik sahəsində yeganə ali təhsil müəssisəsi olan Azərbaycan Dövlət Dəniz Akademiyasında tələbələrin savadlı mütəxəssis kimi yetişməsi Gəmiçiliyin perspektivli, bilikli kadrlarla təminatında əhəmiyyətli rol oynayır. Məhz bu səbəbdəndir ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyi Dəniz Akademiyasının təhsildə uğurlu nəticələrlə fərqlənən məzunlarının işlə təmin olunmasına, onların karyera inkişafına, əlavə təhsil almasına, habelə sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirir.

Gəmiçiliyin strateji inkişaf planlarına uyğun olaraq Xəzərdən kənarda istismar edilən gəmilərin sayı getdikcə artdığından, gənc dənizçilərin yetişdirilməsi zamanı onlara digər hövzələrin də təcrübəsini aşılamaq zərurəti yaranıb.

Bunu nəzərə alaraq dənizçi kadrların beynəlxalq standartlara uyğun inkişafını təmin etmək məqsədilə artıq iki ildir ki, Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri Qara dənizdəki gəmilərə üç aylıq yay üzmə təcrübəsinə göndərilir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də yüksək ixtisaslı gənc mütəxəssislərin hazırlanması, onların dənizçilik sahəsində beynəlxalq təcrübəyə dərindən yiyələnməsi istiqamətində atılan ardıcıl addımlar bununla bitmir. Gəmiçilik rəhbərliyinin təşəbbüsü ilə istedadlı və perspektivli gənclərin xarici ölkələrin aparıcı dənizçilik universitetlərində təhsil alması məqsədi ilə xüsusi Təqaüd Proqramı təsis olunub. Hər il Akademiyanın iki məzunu Gəmiçiliyin maliyyə dəstəyi ilə Dünya Dənizçilik Universitetində təhsil almağa göndərilir.

Ümumiyyətlə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev savadlı və peşəkar gənclərə hər zaman dəstək verir.

Buraxılış imtahanlarından və müsahibələrdən uğurla keçən məzunlara Gəmiçilikdə çalışmaları üçün zəmanət məktubları verilməsi də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin savadlı və peşəkar gənclərə dəstəyinin bariz sübutudur.

Kadr hazırlığından danışarkən 2014-cü ildə fəaliyyətə başlayan Təlim-Tədris Mərkəzini də yaddan çıxartmaq olmaz. Burda Gəmiçiliyin əməkdaşları ilə yanaşı, digər şirkətlərin nümayəndələri üçün də dənizçiliklə bağlı müxtəlif təyinatlı təlimlər təşkil olunur. İndi mərkəz müasir standartlara tam cavab verir. Artıq dənizçilər peşəkar bacarıqlarını artırmaq üçün Təlim-Tədris Mərkəzində yaradılan elektron kitabxanadan yararlana bilirlər. Təlim Mərkəzinin auditoriyaları və əməkdaşların iş otaqları da tamamilə yenilənib.

TTM Böyük Britaniyanın nüfuzlu "The Nautical İnstitute" təşkilatı tərəfindən sertifikata layiq görülüb. Bu sertifikat "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə şərait yaradır. Hazırda Təlim-Tədris Mərkəzi dünyada "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır.

Bəli, əslində gerçəkləşdirilən bu işlərin əksəriyyətinin mövcud vəziyyət nəzərə alınaraq ilk beş illik fəaliyyət dövründə icrası planlaşdırılırdı. Qrafiki qabaqlamaq əvvəlcədən gözlənilsə də, nəticə daha ürək açandı. Ən əsası isə görülən işlərdə ləngimə yoxdur. Gəmiçiliyin qısa, orta və uzunmüddətli perspektivə yönəlik hədəfləri və onların reallaşdırılması prosesi hazırda da uğurla davam edir.

Ümumilikdə, bu sahədə görülən işlər Azərbaycanın regionda nəqliyyat-logistika qovşağına çevrilməsi strategiyasına, ölkənin tranzit potensialının gücləndirilməsinə və iqtisadiyyatın şaxələndirilməsi ilə qeyri-neft sektorunun inkişafına və milli gəmiçiliyin yükdaşımalar bazarında mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

***Rövşən Abdurəhmanov***

# GƏMİÇİLİYİN RƏHBƏR HEYƏTİ ÜÇÜN TRENİNQ KEÇİRİLİB





***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rəhbər şəxsləri üçün “Risklərin idarəedilməsi və daxili nəzarət sahəsində təlimləndirmənin həyata keçirilməsi” mövzusunda təlim təşkil olunub.***

Təlimdə risklərin vaxtında aşkarlanması, təhlili və düzgün qiymətləndirilməsi üçün vacib alətlər haqqında məlumat verilib. Həmçinin, ən çox rast gəlinən risklərdən danışılıb.

Bildirilib ki, risklərin idarə edilməsi sisteminin uğurlu tətbiqi, nəticədə istənilən quruma hədəflərinə nail olmasına imkan verir. Bu baxımdan, risklərin idarə edilməsi sistemi gündəlik fəaliyyətdə xüsusi nəzərə alınmalı və qeyd olunan fəaliyyətə tam inteqrasiya olmalıdır.

Təlimdə o da qeyd olunub ki, risklərin mükəmməl idarə edilməsini təmin edə bilmək üçün öncə şirkət daxilində səmərəli qarşılıqlı əlaqə sistemini təşkil etmək lazımdır.

Treninq interaktiv formada aparılıb. İştirakçıların fikirləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

Xatırladaq ki, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də risklərin idarə olunması sisteminin tətbiqinə xüsusi diqqət yetirilir. Bu məsələ Cəmiyyətin Korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi üzrə hazırlanmış “Yol xəritəsi”ndə də öz əksini tapıb. Gəmiçiliyin rəhbər heyəti üçün nəzərdə tutulan təlim də sözügedən “Yol xəritəsinə” uyğun həyata keçirilir.

# ETİK DAVRANIŞ QAYDALARI ÜZRƏ MAARİFLƏNDİRMƏ İŞİ DAVAM ETDİRİLƏCƏKDİR



***“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın təsdiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli Sərəncamından irəli gələn tapşırıqların yerinə yetirilməsi və Dövlət Dəniz Administrasiyasında işləyən əməkdaşlarla “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunan etik normalara dair maarifləndirmə işlərinin aparılması məqsədilə tədbir keçirilib.***

Tədbirdə “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikası Qanununda göstərilmiş vicdanlı və mədəni davranış, loyallıq, insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə hörmət, korrupsiyanın və maraqlar toqquşmasının qarşısının alınması, qərəzsizlik, digər etik davranış qaydaları və bu prinsiplərə əməl olunması üzrə məsələlərin önəmindən bəhs edilib, vətəndaşlarla nəzakətli, səbirli və məsuliyyətli davranılmasına riayət edilməsinin zəruriliyi iştirakçıların diqqətinə çatdırılıb.

Tədbirdə eyni zamanda, dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, dövlət orqanlarına və dövlət qulluqçularına vətəndaşların etimadının yüksəldilməsi, dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması və digər etik mövzularla bağlı təbliğat işinin daha da təkmilləşdirilməsinin əhəmiyyətindən danışılıb.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılan zaman obyektivliyin qorunmasının əhəmiyyəti və qanunvericilikdə nəzərdə tutulan normalar, dövlət qulluqçusunun davranışının onun özü və təmsil etdiyi qurum barədə rəy yaranmasında əsas amil olduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Mövzular barədə məlumat verildikdən sonra əsasən praktiki misallarla etik davranış qaydaları izah edilərək yaranan suallar cavablandırılıb, müzakirələr aparılıb.

Tədrbidə bildirilib ki, dövlət qulluqçularının etik davranış qaydaları üzrə maarifləndirmə işinin davam etdirilməsi məqsədi ilə gələcəkdə də mütəmadi təlim kurslarının və treninqlərinin təşkil edilməsi, habelə hazırlanmış müvafiq hesabatların ictimaiyyətə açıqlanması təmin ediləcəkdir.

# TOKİO KÖRFƏZİNDƏ ANTİTERROR TƏLİMLƏRİ BAŞA ÇATIB



***Oktyabrın 17-də Tokio körfəzində 2020-ci ildə Yaponiya paytaxtında keçiriləcək Olimpiya və Paralimpiya Oyunları zamanı fövqəladə vəziyyət yaranacağı təqdirdə müvafiq tədbirlərin görülməsi ilə əlaqədar təlimlər keçirilib.***

Təlimlər zamanı xilasedicilər terrorçuların hücumuna məruz qalan kruiz gəmisinin sərnişinlərinə yardım göstəriblər.

Təlimlərdə Yaponiya Sahil Mühafizəsi Xidmətinin və Yanğınsöndürmə İdarəsinin 150-dən çox əməkdaşı iştirak edib. Plana əsasən, terrorçular gəminin göyərtəsində bomba partladıblar. Nəticədə sərnişinlərin bir çoxu xəsarət alıb.

Sahil Mühafizəsi Xidmətinin əməkdaşı bildirib ki, təlimlər zamanı əsas prioritet terror aktının qarşısının alınmasıdır. Eyni zamanda, o əmin olduqlarını bildirib ki, əgər hücum baş verərsə, vətəndaşlarla dövlət orqanlarının birgə fəaliyyəti faciənin qarşısını almağa imkan yaradacaq.

# KURIK LİMANINDAN BAKI LİMANINA GÖNDƏRİLƏN YÜKÜN HƏCMİ BİR MİLYON TONA ÇATDIRILIB









***Qazaxıstanın Kurık limanından Bakı Beynəlxalq Dəniz Ticarət Limanına göndərilən yüklərin həcmi bir milyon tona çatdırılıb.***

Bu münasibətlə Kurık limanında təntənəli mərasim keçirilib.

Limanın baş direktoru Mirzabek Sakdaqanov peşəkar xidmət göstərməsinə görə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin rəhbərliyinin “Təşəkkürnamə”yə layiq görüldüyünü deyib.

“Təşəkkürnaməni” qəbul edən “Akademik Zərifə Əliyeva” gəmi-bərəsinin kapitanı Abuzər Həsənov Gəmiçiliyin bərələrinə göstərilən etimada görə, Kurık limanının rəhbərliyinə və əməkdaşlarına minnətdarlığını bildirib. Bundan sonra da Xəzər üzərindən tranzit yükdaşımalarda mövcud imkanlardan maksimum dərəcədə istifadə edəcəklərini deyib.

Kurık limanı 2016-cı ildə istismara verilib. Ümumi sahəsi 40 hektar olan liman əlverişli coğrafi mövqeyə malikdir. Burada suyun dərinliyi böyük tutumlu gəmilərin yan almasına imkan verir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas tərkib hissəsindən biri sayılan Kurıkdan yüklər Azərbaycan və Gürcüstandan keçərək Avropaya göndərilir.

Hazırda liman ərazisində daha bir yanalma körpüsü inşa edilir. Həmin körpü avtomobil daşıyan gəmilər (Ro-Ro/Ro-Pax) üçün yeni imkanlar açacaq. Liman akvatoriyasında dibdərinləşdirmə işləri yekunlaşıb, ümumilikdə 730 min kubmetr həcmdə süxur çıxardılıb. Tikintinin bu mərhələsində aktiv şəkildə yanalma körpülərinin, dəmir-beton blokların quraşdırılması da həyata keçirilir.

Onu da əlavə edək ki, Kurık limanının istismarına qədər Qazaxıstandan tranzit yükdaşımaları yalnız Aktau limanı ilə həyata keçirilirdi. Aktau limanının yükaşırma imkanlarının məhdud olması, əlverişsiz coğrafi şəraiti (küləklərin birbaşa təsirinə məruz qalması) rentabelliyə mənfi təsir göstərirdi. Bu səbəbdən Kurık bərə kompleksinin istifadəyə verilməsi Azərbaycan üçün də əhəmiyyətli sayılır. Yeni kompleks Aktau ilə müqayisədə Bakı limanına daha yaxın məsafədə yerləşir. Belə ki, Kurıkdan Bakıya təxminən 18, Aktaudan Bakıya isə 22 saatlıq yol var.

Məlumat üçün deyək ki, Kurıkdan ilk yola salınan gəmi də ölkəmizə məxsus olub. 2016-cı ilin dekabrın 7-də sınaq mərhələsində Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin “Şahdağ” gəmi-bərəsi istifadə edilib.

# GƏMİLƏRİN XİDMƏTİNDƏ TEXNİKİ YENİLƏŞDİRMƏ VƏ MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ DƏ MÜZAKİRƏ OLUNUB



***Türkmənistanın “Avaza” milli turizm zonasında Xəzəryanı dövlətlərin liman rəhbərlərinin beştərəfli görüşü keçirilib.***

Görüşdə Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan nümayəndələri dəniz yüklərinin daşınması, dəniz nəqliyyatı təhlükəsizliyinin təmin edilməsi, Xəzər limanlarının potensialının artırılması, o cümlədən istehsal infrastrukturunun modernləşdirilməsi, gəmilərin xidmətində texniki yeniləşdirmə və müasir texnologiyaların tətbiqi sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Azərbaycanı görüşdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanını baş direktorunun müavini Vahid Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Qeyd edək ki, Xəzəryanı ölkələrin liman rəhbərlərinin görüşü 2009-cu ildən keçirilir. Yeddinci birgə beştərəfli görüş 2015-ci ildə İranın Əmirabad limanında baş tutmuş və növbəti görüşün Türkmənistanda keçirilməsi qərara alınmışdı.

# PATRİK VERXOVEN: “AZƏRBAYCAN BEYNƏLXALQ LİMANLAR ASSOSİASİYASININ KONFRANSININ TƏŞKİLATÇILIĞINA ÇOX PEŞƏKAR YANAŞIB”

***Bakıda səfərdə olan Beynəlxalq Limanlar Assosiasiyasının siyasət və strategiya üzrə rəhbər direktoru Patrik Verxoven AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.***

**- Bakıya səfərinizin məqsədi nədir?**

- Səfərimin məqsədi Bakı Limanından olan həmkarlarımla gələn ilin mayında burada keçiriləcək Beynəlxalq Limanlar Assosiasiyasının illik konfransının təşkilati məsələlərini müzakirə etməkdir.

**- Şəhər barədə ilk təəssüratınız necədir?**

- Bakı çox dinamik şəhərdir, mənim gözlədiyimdən də xeyli böyükdür. Üç milyon insan az demək deyil. Mənim ölkəm Belçikada ən böyük şəhərin 1 milyon əhalisi var. Ona görə də Bakı mənim üçün valehedici arxitekturası olan böyük şəhərdir. Burada tarixi abidələr müasir tikililərlə gözəl uzlaşır.

**- Konfransa hazırlıq işləri necə gedir? Siz artıq hansı görüşlər keçirmisiniz?**

- Mən bir neçə görüş keçirmişəm və logistik nöqteyi-nəzərdən deyə bilərəm ki, konfransın keçirilməsi üçün artıq çox iş görülüb. Lakin mənim səfərimin məqsədi konfransın proqramını razılaşdırmaqdır. Biz artıq razılaşdırmışıq ki, əsas diqqət birləşdirici hablara qoşulmaya və dəhlizlərin yaradılmasına yönəldiləcək. Çünki dəhlizlərdən təkcə yük üçün yox, insanlar üçün də istifadə olunur. Daha bir mühüm məqam bu dəhlizlərlə beynəlxalq əməkdaşlığı genişləndirməkdən ibarətdir. Həmçinin fiskal rejimin mövcudluğu, habların rəqabətqabiliyyətliliyi çox vacibdir.



Bu məsələlər qarşıdakı konfransın baş mövzularından biri olacaq. Bu mövzu ilə bağlı iki və ya üç ölçü var.

**- Siz Azərbaycanın artıq həyata keçirdiyi həmin hazırlığı necə qiymətləndirirsiniz?**

- Mənim idarəçilik, hazırlıqla bağlı, Avropanın Rotterdam, Varna, Hamburq, Marsel və başqa limanları ilə işlərdə təcrübəm var. Mən Avropa limanları təşkilatına 10 ildən artıq rəhbərlik etmişəm. Hər il biz buna bənzər konfranslar təşkil edirdik. Mən bundan əvvəlki təcrübəmə əsaslanaraq deyə bilərəm ki, Azərbaycan konfransın təşkilatçılığına çox peşəkar yanaşıb.

**- Siz artıq Bakı Limanında olmusunuz, limanın imkanları ilə tanışsınız. Liman sizə hansı təsir bağışladı?**

- Bəli. Mən limanda oldum. Ofisdə məni Bakı Beynəlxalq Dəniz Ticarəti Limanının tikintisinin birinci mərhələsinin layihə işləri ilə tanış etdilər. Orada görülən işlərlə tanışlıqdan sonra mən başa düşdüm ki, biz konfransa iştirak etməyə gələndə artıq birinci mərhələ tam başa çatacaq. Liman məndə böyük təəssürat yaratdı, gördüklərimdən çox razıyam və bu, çox ümidlər verən limandır. Nümayiş olunan təqdimatdan mən başa düşdüm ki, bu müasir liman müxtəlif yüklərin daşınmasını planlaşdırır, həmçinin sərnişin sistemini işləyib hazırlamağa çalışır ki, bu da çox mühümdür. Başlanğıc sərmayənin hökumət tərəfindən qoyulması çox vacibdir ki, ilkin mərhələdə liman xarici kapitaldan və xarici sərmayədən asılı olmasın. Limanın strateji fəallığının qorunmasında faydalı ola biləcək ikinci mərhələ “Bir kəmər, bir yol” layihəsində iştirak etməkdir.

**- Limanın perspektivlərini necə qiymətləndirirsiniz? Azərbaycan regionda nəqliyyat habı olmağı qarşısına məqsəd qoyub. Bu məsələdə Bakı Limanı hansı rol oynaya bilər?**

- Coğrafi mövqeyinə görə Bakı Limanının böyük perspektivlərini görürəm. Hazırda dəniz və dəmir yolu nəqliyyatının iştirak etdiyi layihələrin də daxil olduğu yeni nəqliyyat dəhlizləri yaradılır. Bu planda Çin özünün “Bir kəmər, bir yol” konsepsiyasını irəli sürüb və Azərbaycan bu təşəbbüsə qoşulub. Əgər nəzərə alsaq ki, Bakı tarixən Böyük İpək yolunun bir hissəsi olub və hazırda bu tarixi yolun bərpası üçün böyük işlər aparılır, hesab edirəm ki, Bakı yükboşaltma məntəqəsi olaraq qalacaq və “Bir kəmər, bir yol” konsepsiyasının işlənib hazırlanmasında vacib rol oynaya biləcək.

**- Liman ərazisində azad ticarət zonası yaradılır. Necə hesab edirsiniz, bu, limanın inkişafına imkan yaradacaq?**

- Əgər ölkə rəqabətqabiliyyətli olmaq istəyirsə, o zaman yaxşı infrastruktura, sabit hüquqi və maliyyə bazasına malik olmalıdır. Azad ticarət zonasına gəldikdə, düşünürəm ki, bu, investorlar üçün bir siqnaldır. Çünki bu region ətrafında rəqabət dünyanın başqa hissələrində olduğu kimi, o qədər də böyük deyil. İnfrastruktur, hüquqi baza, fiskal ab-hava, maliyyə stimulu investorlar üçün əsas amillərdir. Bu bağlı bütünlüklə investorlar üçün maraqlıdır.

# "KAPİTANLIQ FƏTH ETMƏK İSTƏDİYİM ƏN UCA ZİRVƏ İDİ"





***Həqiqətən də dənizçi olmaq asan deyil. Dumanı var, fırtınası var, həsrəti var... Hər kəs bacarmır bu işi. Dənizi sevməyənlər ümumiyyətlə bacarmır, bacarmazlar da...***

**Elə müsahibim - Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin qabaqcıl kapitanlarından olan Şakir Dadaşov da bu qənaətdədir. Hesab edir ki, dənizi sevmək başlıca şərtdir. Özü də kor-koranə yox.**

**- Şakir müəllim, belə başa düşdüm ki, dənizi yaxşı tanıyırsınız.**

-Bəli, uşaqlığım dəniz sahilində - Neftçala rayonunun Bankə qəsəbəsində keçib. Amma bu o demək deyil ki, dəniz kənarında doğulub, böyüdüyüm üçün bu peşəni seçmişəm.

**- Bəs, xüsusi bir səbəb olubmu?**

- Bizim nəsildə dənizçi çox olub. Dayım, qardaşlarım...Əslində, özümü tamam başqa sahədə sınamaq istəyirdim. Hətta sənədlərimi də vermişdim. Novruz dayım yolumdan döndərdi. Sənədlərimi geri götürməyi təkid etdi. Və məni dənizçiliyə yönləndirdi. Həmişə deyirdi ki, səni kapitan kimi görmək istəyirəm. Sözündən çıxa bilməzdim. 1980-ci ildə Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbinin gəmi sürücülüyü fakültəsinə qəbul oldum. 1983-cü ildə oranı bitirdim və Xəzər Dəniz Neft Donanmasına gəldim. Təchizat-yedək gəmilərinin birində kapitanın ikinci köməkçisi kimi işə başladım. 1988-ci ildən kapitanın baş köməkçisi işlədim. Bir il sonra kapitanlığa namizədliyimi irəli sürdüm. O vaxtlar azərbaycanlı kadrlara qarşı biganəlik var idi. Buna görə, kapitan ola biləcəyimə inanmırdım. Amma bəxtim gətirdi. Donanmada yerli kadr kimi seçilən 2-3 kapitandan biri də mən oldum.

**- Yedək gəmisində işlədiyinizi dediniz. Bildiyim qədəri ilə bu tip gəmilərdə çalışmaq asan deyil...**

- Bəli, çətindir. Təchizat-yedək gəmiləri çox vacib işləri yerinə yetirirlər. Biz böyük platformaların yerini dəyişir, lövbərə qoyur, xilasetmə işləri görürük.

**- Şakir müəllim, dənizçi olmaq nə deməkdir?**

- Dənizçi olmaq zövq işidir. Əvvəldə dediyim kimi, dənizi sevməkdir. Və bir də mənə görə, dənizçi olmaq plansız yaşamaqdır. Çünki nə vaxt, harda olacağını bilmirsən.

**- Dənizçi olmaq həm də məsuliyyətin nə olduğunu dərk etməkdir..**

- Doğrudur. Dəniz çox şıltaqdır. Hər an coşa bilər. Ona görə də, səhlənkarlıq və arxayınçılıq yolverilməzdir. Sizə bir hadisə danışım. Xaricilərin bizdə yeni işə başladıqları vaxtlar idi. "İsrafil Hüseynov" gəmisində idik. Havanın pis olacağı barədə məlumat aldıq. Gəmini dayaz sularda lövbərdə saxlamaq barədə göstəriş verdilər. Xaricilər buna etiraz etdilər. Bizim narahatlığımızı başa düşmürdülər. "Boş şeydir" deyirdilər. Birdən güclü fırtına oldu. Sözlərini geri götürdülər. Etiraf etdilər ki, Xəzər dənizinin fırtınası ilə zarafat etmək olmaz.

**- Xəzər Dəniz Neft Donanmasına gəldiyiniz ilk vaxtları necə xatırlayırsınız?**

- 1984-cü ildən XDND-də işləyirəm. O vaxtlar çox qarışıq dövr idi. Azərbaycanlılara qarşı ayrı-seçkilik var idi. Amma müstəqillikdən sonra vəziyyət dəyişdi. Hər şey öz yerini tutdu. Əvvəllər xaricdən mütəxəssislər gələrdi. İndi demək olar ki, onlara ehtiyac yoxdu. Heyətimiz çox peşəkardır, gəmilərimiz müasirləşib.

**- Dənizçiliyə başlayarkən özünüz üçün bir hədəf müəyyənləşdirmişdinizmi?**

- Kapitan olmaq. Bu mənim fəth etmək istədiyim ən böyük zirvə idi. Təvazökarlıqdan uzaq olsa da, bacardım.

**- Uğurunuzun sirri nədədir?**

- Mən həmişə öyrənirəm. Mənə elə gəlir ki, yaxşı kapitan olmaq istəyən ara verməməli, daim öyrənməlidir.

**- Şakir müəllim, kollektivdə kifayət qədər hörmətiniz var. Yəqin ki, asan qazanmamısınız?!**

- Haqqımda belə xoş fikirlər dolaşırsa, buna yalnız sevinmək olar. Elə xüsusi prinsiplərim yoxdur. Sadəcə, hər zaman işlədiyim gəmidə heyətə dəyər vermişəm. Həmişə fikirləşmişəm ki, "tək əldən səs çıxmaz".

**- Ailəniz dənizçilik həyatında sizə necə dəstək verir?**

- Bax, olduqca mühüm məsələyə toxundunuz. Dənizçi üçün ailənin dəstəyi çox vacibdir. Elə biriylə ailə qurmaq lazımdır ki, o, səni başa düşsün. Nə yalan deyim, evin bütün yükü xanımın üzərinə düşür. Övladlar, nəvələr, ev və s.. Mənim həyatımın 70-80%-i dənizdə keçir. Buna baxmayaraq, bu gün hər şey qaydasındadır. Kimin sayəsində? Əlbəttə ki, həyat yoldaşımın.

**- Və sonda sizin əməyinizin yüksək qiymətləndirilməyindən danışaq. Bu yaxınlarda Prezident İlham Əliyevin Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olundunuz. Nə deyə bilərsiniz?**

- Açığı deyim ki, gözləmirdim. Eşidəndə, əvvəlcə inanmadım. Nə deyə bilərəm? Demək ki, dövlətini, millətini sevən hər kəsə dəyər verilir, əməyi qiymətləndirilir. Bu, stimul və üstəlik də məsuliyyətdir. Yüksək mükafata görə möhtərəm Prezidentimizə və "AXDG" QSC-nin sədri Rauf Vəliyevə dərin minnətdarlığımı bildirirəm. Etimadı doğrultmağa çalışacağam.

***Rövşən Abdurəhmanov***

# DÖVLƏT DƏNİZ AKADEMİYASINDA İNTERNET-MÜHAZİRƏ TƏŞKİL OLUNUB



***Odessa Dəniz Mühəndisliyi Bürosunun direktoru, professor Gennadi Yeqorov MDB ölkələrinin aparıcı dəniz universitetlərinin tələbə və müəllimləri üçün açıq internet-mühazirə ilə çıxış edib.***



İnternet-mühazirənin mövzusu "XXI əsrin neftdaşıyan və kombinə edilmiş qarışıq çay-dəniz tipli gəmiləri" olub.

Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmiqayırma və gəmi təmiri" ixtisası üzrə təhsil alan tələbələrinin, müvafiq kafedra müəllimlərinin qoşulduğu və internetlə canlı yayımlanan mühazirədə professor G.Yeqorov beynəlxalq enerjidaşıyıcıları bazarında vəziyyət, neft və neft məhsullarının nəqli marşrutları, dəniz daşımalarında ekoloji problemlər və onların həlli yolları barədə ətraflı məlumat verib. O, köhnə nəsil tankerlərin fiziki və mənəvi cəhətdən köhnəlməsi, beynəlxalq konvensiyaların son tələbləri haqqında danışaraq, müasir çay-dəniz tipli gəmilərin müqayisəli təhlilini verib, onların konstruktiv və istismar xüsusiyyətlərini vurğulayıb.

Canlı internet-mühazirə akademiya tələbələrinin və müəllimlərin böyük marağına səbəb olub

Xatırladaq ki, Azərbaycan Dövlət Dəniz Akademiyası MDB məkanında dənizçilik təhsili sahəsində ən nüfuzlu ali məktəb olan Sankt-Peterburq Dövlət Dəniz və Çay Donanması Universiteti yanında Tədris-Metodiki Şuranın üzvüdür. Qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında qurulan əlaqələrimiz ildən-ilə möhkəmlənir. Bu, ən müasir tədris metodlarının tətbiqində də özünü göstərir.

# "DƏNİZ LAQEYD ADAMLARI SEVMİR"




***Dənizçilik təkcə peşə deyil, həyat tərzidir. Bəziləri isə lap dərinliyə gedib onu fəlsəfə adlandırır. Bu peşənin fəlsəfəsini doğma sahillərdən uzaqlarda üzən dənizçilərimiz daha dərindən dərk edirlər. Həmsöhbətim uzaq səfərlər kapitanı Bəhram Dadaşov kimi...***

**-Bəhram müəllim, neçə ildir dənizdəsiniz?**

- 1979-cu ildən... Sular qoynunda əmək fəaliyyətimə matros kimi başlamışam. Daha sonra kapitanın üçünci, ikinci və baş köməkçisi işləmişəm. Odessa Ali Dəniz Mühəndisləri Məktəbini bitirdikdən sonra Gəmiçiliyin gəmilərində kapitan vəzifəsində çalışıram.

**- Xarici sularda üzmək və uzaq səfərlər kapitanı olmaq nə deməkdir?**

- Ümumiyyətlə, kapitan olmaq asan deyil. Bunun üçün illərin təcrübəsi lazımdır. Yaxşı kapitan öncə özünü yaxşı matros, yaxşı köməkçi kimi təsdiqləməlidir. Əks halda, yaxşı kapitan olmaqla bağlı bütün cəhdlər uğursuz alınacaq. Bundan başqa, kapitan davranışları və qərarları ilə də nümunə olmağı bacarmalıdır. Konkret sualınıza gəlincə, deyə bilərəm ki, uzaq səfərlər kapitanı hər şeydən əvvəl xarici sularda üzməyin məsuliyyətini dərk etməlidir. Bu, çox vacib məqamdır. Burda söhbət təkcə heyət, gəmi və yük üçün cavabdehlikdən getmir. Nəzərə almalısan ki, yanlış bir addım vətənin adına yad sularda xələl gətirə bilər. Ona görə də kiçik xətalara belə yol verməməyə çalışırıq.

**- 40 illik təcrübəniz var. Hər halda bu müddətdə fors-major vəziyyətlərlə azı 40 dəfə qarşılaşmısınız...**

- Bu işin hər anında risk var. Dənizçiliyi elə digər peşələrdən fərqləndirən ən başlıca xüsusiyyət də budur. Bunu qəbul etmək lazımdır. Dəniz gözəl göründüyü qədər də rəhmsizdir. O, biganəliyi sevmir. Ona görə hər şey daim nəzarətdə saxlanmalıdır. Ən təhlükəli vaxt qışdır. Özü də Qara dənizdə. Qışda Qara dənizdə dalğaların hərəkət istiqamətini müəyyənləşdirmək çətindir. Dalğalar müxtəlif səviyyədə və fərqli ölçüdə olur. Biz buna görə, hava haqqında məlumatlara çox diqqətlə yanaşırıq. Külək güclü olanda sığınacaqlarda gözləməyə çalışırıq. Amma bəzən külək bizi açıq dənizdə tutur. Onda hər şey heyətin peşəkarlığından asılı olur.

**- Mümkünsə, biraz da heyət haqqında danışın.**

- "Teymur Əhmədov" gəmisinin heyəti 16 nəfərdən ibarətdir. Hamısı peşəkar və çox məsuliyyətlidir. Heyət üzvlərindən birinci tələb odur ki, hər kəs öz işini bilməli və görməlidir. Əsas nizam-intizamdır. Dənizçi peşəsinə hörmət etməlidir. Necə deyərlər, dəniz laqeyd insanlar üçün deyil.

**- Bəhram müəllim, kapitanı olduğunuz "Teymur Əhmədov" gəmisi təkcə Qara dənizdə istismar olunur?**

- Biz əsasən Rusiya, Ukrayna və Türkiyə limanlarına səfərlər edir, quru yüklər daşıyırıq. Amma ehtiyac olanda Aralıq dənizinə də keçirik.

**- Hazırda boğazdan keçmə əməliyyatını yerinə yetirirsiniz. Bilmək istərdik, Bosfor boğazından keçid əməliyyatının özəlliyi nədir?**

- Əvvəlcə deyim ki, Bosfor ən qəliz boğazlardan biridir. Burda 3,4 cür dərinliyə görə axıntılar var. Buna görə, boğazda gəmini idarə etmək çox çətindir. Gərək çox diqqətli olasan. Həm sürətə, həm də gəmilərin arasında məsafəyə müntəzəm nəzarət etmək lazımdır. İndiki texnika imkan verir ki, gəmini dəqiq idarə edə bilək.





**- Maraqlıdır, Kerç boğazını necə keçirsiniz?**

- Kerç boğazında vəziyyət başqa cürdür. Orda boğazı bələdçi olmadan keçmək mümkün deyil. Kerç kanalı süni olduğundan keçid zamanı eni ilə bağlı problemlər yaranır. Məsələn, boğazdan gəmilər yanaşı çətinliklə keçir.

**- Sizə bu çətin və şərəfli işdə uğurlar arzulayırıq.**

- Çox sağ olun!

***Turab MƏMMƏDOV***

# "SABİT ORUCOV" TƏDRİS GƏMİSİNDƏ TƏŞKİL OLUNAN DƏRSLƏRƏ VƏ TƏLİMLƏRƏ XÜSUSİ MƏSULİYYƏTLƏ YANAŞILIR



***Dənizdə insan həyatının təhlükəsizliyi Azərbaycan Dövlət Dəniz Akademiyasının konvension ixtisaslarında təhsil alan tələbələrin mütəxəssis kimi yetişdirilməsində başlıca fikir verilən məsələlərdəndir.***



Tələbələrin nəzəri biliklərlə yanaşı, praktiki vərdişlərə də yiyələnməsi tədris prosesinin əsas məqsədlərindəndir. Bu baxımdan gənclərin müvafiq təlimlərdə iştirakı böyük əhəmiyyət daşıyır. Odur ki, Akademiyanın professor-müəllim heyəti Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tələbələrin ixtiyarına verdiyi "Sabit Orucov" tədris gəmisində təşkil olunan dərslərə və təlimlərə xüsusi məsuliyyətlə yanaşır.

Yeni tədris ilində "Xilasedici vasitələr, yanğınla mübarizə və gəminin yaşaması üzrə hazırlıq" fənni tədris olunan I kurs tələbələri üçün 17-18 oktyabr tarixlərində keçilən təlimlər uğurla sona yetib. ADDA-nın "Dəniz naviqasiyası mühəndisliyi", "Gəmi elektrik qurğularının istismarı mühəndisliyi" və "Elektrik mühəndisliyi" ixtisaslarında təhsil alan gənclər "Dəniz daşımaları və naviqasiya" kafedrasının baş müəllimi İsmayıl Dünyamalıyevin rəhbərliyi altında, fənn proqramına uyğun olaraq, fərdi və kollektiv xilasetmə vasitələrindən istifadə vərdişlərinə yiyələniblər.



Təlimlərə "Sabit Orucov" gəmisinin kapitanının baş köməkçisi S.Kərimov, bosman R.Rzayev və kapitanın yanğın üzrə köməkçisi D.Həsənov yaxından kömək göstəriblər.

Növbəti həftələrdə "Sabit Orucov" gəmisində I kurs tələbələri üçün yanğınla mübarizə üsullarına dair təlimlər də keçiriləcəkdir.

# "BƏRDƏ" GƏMİ-BƏRƏSİNİN YENİDƏN TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNDA İSTİSMARINA START VERİLİB









***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Nəqliyyat donanmasına məxsus "Bərdə" gəmi-bərəsinin təmiri yekunlaşıb. Gəmi sınaq üzüşündən uğurla çıxıb.***

Gəmi-bərənin sükan və köməkçi qurğusu, hərəkət mexanizmləri, müxtəlif təyinatlı nasoslar, köməkçi və baş mühərriklər əsaslı təmir olunub. Bəzi detallar yeniləri ilə əvəzlənib. Eyni zamanda gəmi qazanı, mühərriklərin soyutma boruları, lövbər qurğusu da sazlanıb. Bərənin sualtı və suüstü hissəsi, vaqon göyərtəsi rənglənib.

Gəminin avtomatika, naviqasiya avadanlıqları və elektrik hissələrində də bütün zəruri yoxlama və təmir işləri həyata keçirilib. Sınaq üzüşündən uğurla çıxan gəmi-bərənin registrə dair müvafiq sənədləri də artıq hazırdır.

"Bərdə" gəmi-bərəsinin yenidən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda istismarına start verilib. Qeyd edək ki, üzən vasitə Bakı-Türkmənbaşı-Bakı, Bakı-Aktau-Bakı, Bakı-Kurık-Bakı xətlərində müntəzəm çıxdığı səfərlərdə dəmir yolu vaqonları daşıyır.

Məlumat üçün bildirək ki, uzunluğu 154.50, eni isə 17.0 metr olan gəminin maksimal sürəti 13.9 uzeldir. Bərə göyərtəsinə 54 vaqon götürmək qabiliyyətindədir.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərdə yeganə bərə operatorudur. Hazırda Gəmiçiliyin donanmasında 13 gəmi-bərə var.

# SƏFİR: "ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZİ TAM FORMALAŞDIQDAN SONRA AZƏRBAYCANLA İRAN ARASINDA TİCARƏT DÖVRİYYƏSİ KƏSKİN ARTACAQ



***"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi tam formalaşdıqdan sonra Azərbaycanla İran arasında ticarət dövriyyəsində kəskin artım müşahidə ediləcək.***

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov İran İslam Respublikasının iqtisadi məsələlər və maliyyə naziri Məsud Kərbasian ilə görüşündə deyib.

Səfir həmsöhbətini Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri təyin olunması münasibəti ilə təbrik edib.

Diqqətə çatdırılıb ki, son dörd ildə Azərbaycan və İran prezidentləri 9 dəfə görüşüb. Ölkələrimiz arasında ticari-iqtisadi əlaqələr inkişaf edir, ötən il ticarət dövriyyəsində 70 faiz artım olub. Dövlət və hökumət nümayəndələrinin qarşılıqlı səfərləri intensiv xarakter daşıyır. Həyata keçirilən birgə iqtisadi layihələrdən konkret nəticələr əldə olunur. Qarşılıqlı olaraq biznes-forum və sərgilər təşkil olunur. Azərbaycan və İran şirkətləri Neftçala Sənaye Məhəlləsində avtomobil və Pirallahı Sənaye Parkında dərman istehsalı zavodunu müştərək inşa edirlər. Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və Sərəncamları ilə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı, tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilir. Bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilir. Səfir diqqətə çatdırıb ki, Azərbaycanın müxtəlif bölgələrində müasir logistik mərkəzlərin yaradılması istiqamətində işlər aparılır. Qazaxıstanın Aktau şəhərində Azərbaycan tərəfinin qurduğu müasir logistik mərkəz fəaliyyət göstərir və İran şirkətləri sözügedən mərkəzin imkanlarından yararlana bilərlər.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyətinə toxunan səfir Bünyad Hüseynov qeyd edib ki, sözügedən nəqliyyat dəhlizi tam formalaşdıqdan sonra iki ölkə arasındakı ticarət dövriyyəsində kəskin artım müşahidə ediləcək. Astara (Azərbaycan)-Astara (İran) dəmir yolu xəttinin istismara verilməsi ilə Fars Körfəzi ilə Avropanın ucqar limanları arasında birbaşa əlaqə yaranacaq. İranı Azərbaycan vasitəsilə Rusiya və Avropa ilə birləşdirəcək Rəşt-Astara dəmir yolunun inşası hər iki dövlətin iqtisadi və ticarət əlaqələrini daha da möhkəmləndirəcək.

İki ölkənin qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişafını müsbət qiymətləndirən B.Hüseynov diqqətə çatdırıb ki, həyata keçirilən tədbirlər qarşılıqlı faydalı əməkdaşlığın bariz nümunəsidir. İki ölkə arasında turizm sahəsində əməkdaşlıq inkişaf edir, belə əlaqələr turizm sənayesinin inkişafına böyük təkan verir, həmçinin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. Azərbaycana gələn turistlər üçün viza rəsmiləşdirilməsi prosedurunun sadələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə "ASAN viza" sistemi yaradılıb. 2017-ci il yanvarın 10-dan başlayaraq İran vətəndaşları sözügedən sistem ilə 3 gün ərzində elektron vizalar ala bilirlər.

Həmçinin 2017-ci il avqustun 30-dan başlayaraq "ASAN viza" portalı vasitəsilə təcili elektron vizaların rəsmiləşdirilməsinə başlanılıb. İki ölkə Prezidenti arasında çox yaxşı qarşılıqlı etimadın yaranmasından məmnun olduğunu bildirən Məsud Kərbasian Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib. Ölkə prezidentlərinin görüşlərinin əhəmiyyətli olduğunu vurğulayıb.

Qarşılıqlı səfərlərin ölkələrimiz arasındakı əlaqələrin daha da inkişaf etməsinə zəmin yaradacağını vurğulayan M.Kərbasian yaxın vaxtlarda Azərbaycan Respublikasına səfər edəcəyini məmnunluqla qeyd edib. Bunu ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasının və dinamik inkişaf etməsinin yaxşı göstəricisi kimi dəyərləndirib. İranlı nazir ölkələrimiz arasında münasibətlərin inkişafı kontekstində vətəndaşlarımızın gediş-gəlişinin nəzərəçarpacaq dərəcədə artığını vurğulayaraq Azərbaycan tərəfinin dövlət sərhədinin buraxılış məntəqələrinin 24 saatlıq iş rejiminə keçməsi təklifinə müsbət baxılacağını söyləyib.

Görüş zamanı, həmçinin iki ölkə arasında energetika, gömrük, nəqliyyat, kənd təsərrüfatı və bank sektorunda əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Rabil Kətanov***

# BAKI LİMANININ DƏSTƏYİ İLƏ LOGİSTİKA - TƏLİM-TƏDRİS MƏRKƏZİ FƏALİYYƏTƏ BAŞLAYIB

***"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin dəstəyi ilə Gəncə şəhərində Azərbaycan Texnologiya Universitetinin Yüngül Sənaye Mühəndisliyi və Logistika Fakültəsində yaradılan Logistika - Təlim-Tədris Mərkəzinin açılış mərasimi olub.***



Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən məlumat verilib.

Rəsmi açılış mərasimindən öncə qonaqlar təlim mərkəzi ilə tanış olublar.

Azərbaycan Texnologiya Universitetinin (ATU) rektoru Akif Süleymanov layihənin uğurla tamamlanması ilə bağlı öz məmnunluğunu bildirərək, logistika sahəsinin Azərbaycan iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb və Bakı Limanı ilə ATU-nun əlaqələrinin yalnız Təlim-Tədris Mərkəzi çərçivəsində deyil, digər sahələrdə də inkişaf etdirilməsinə ümid bəslədiyini deyib.

O, həmçinin qeyd edib ki, bu layihə Bakı Limanının təcrübəsinin universitetdə təhsil alan gənc və perspektivli tələbələrlə bölüşməsi üçün böyük təşəbbüsdür.

Bakı Limanının baş direktorunun müavini Fərid Əhmədov layihə haqqında məlumat verərək bildirib ki, "Həm təhsilin, həm də sənayenin inkişafı məqsədilə sənaye ilə təhsilin əlaqəsi qaçılmazdır. Bunlardan heç biri ayrılıqda inkişaf edə bilməz və hər ikisi bir-birini qidalandırmalıdır. Məhz bu səbəbdən bu cür logistika mərkəzlərinin, hətta logistika sahəsində yeni ixtisasların yaranması təsadüfi deyil".

Bakı Limanının İstismar Xidmətinin müdiri Yevgeni Si bu cür əməkdaşlıqların yalnız Gəncəyə deyil, eyni zamanda digər ətraf regionların inkişafına da öz töhfəsini verəcəyinə inandığını vurğulayıb.

# AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI TANAP LAYİHƏSİ ÜÇÜN AZƏRBAYCANA 500 MİLYON DOLLAR KREDİT AYIRIB

***Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üçün Azərbaycana 500 milyon dollar kredit ayırıb.***




Kredit layihəsinin yekun icmalı oktyabrın 18-də EBRD-nin idarə heyəti tərəfindən təsdiq olunub. Bu vəsait "Cənub Qaz Dəhlizi"nin ən böyük hissəsini təşkil edən TANAP layihəsində istifadə edilməsi üçün "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinə (CQD) ayrılıb. Kredit CQD-nin TANAP üzrə öhdəliklərinin bir hissəsinin maliyyələşdirilməsinə yönəldiləcək.

Qeyd edək ki, EBRD ilə yanaşı, bir sıra digər beynəlxalq maliyyə institutları da TANAP layihəsini dəstəkləyib. Ümumi dəyəri 8,6 milyard dollar olan TANAP üçün daha əvvəl Dünya Bankı 800 milyon dollar kredit ayırıb. Bu kreditin 400 milyon dolları Azərbaycanın zəmanəti ilə "Cənub Qaz Dəhlizi" QSC-yə, qalan hissəsi isə Türkiyənin zəmanəti ilə "Botaş" şirkətinə verilib. Asiya İnfrastruktur İnvestisiya Bankı isə TANAP-a 600 milyon dollar maliyyə vəsaiti ayırıb. Avropa İnvestisiya Bankı da TANAP layihəsinin maliyyələşdirilməsini nəzərdən keçirir.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 2014-cü il tarixli 25 fevral Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

TANAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsidir. "Cənub Qaz Dəhlizi"nin digər seqmentlərini isə "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi və "Trans-Adriatik" (TAP) layihələri təşkil edir. Bu boru xətti Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan "Cənub Qaz Dəhlizi" vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

# TAP-IN İNŞASINDA İSTİFADƏ EDİLƏCƏK BORULARIN HAMISI YUNANISTAN, ALBANİYA VƏ İTALİYAYA ÇATDIRILIB



***Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin tikintisində istifadə olunacaq boruların hamısı Yunanıstan, Albaniya və İtaliyaya çatdırılıb.***

Bu barədə TAP konsorsiumu məlumat yayıb. Bildirilir ki, TAP-ın inşasında istifadə ediləcək boruların son partiyası Yunanıstanın Saloniki şəhərinə gətirilib. TAP-ın inşasında istifadə olunacaq ümumilikdə 55 min borunun nəqli təxminən il yarıma tamamlanıb. İlk borular 2016-cı ilin aprelində Albaniyanın Durres şəhərinə, bir ay sonra isə Yunanıstana gətirilib.

TAP-ın Yunanıstan hissəsində 32 min, Albaniyada 13 min, dəniz hissəsində 9 min 150 və İtaliyada isə 670 borudan istifadə olunacaq. Boruların çəkisi ümumilikdə 520 min ton təşkil edir. Bir 18 metrlik borunun çəkisi 9,3 tondan 16,3 tona qədər dəyişir.

Borular tikinti meydançalarına müxtəlif ölçülü 79 gəmi və Yunanıstan ərazisində isə 158 blok qatarla çatdırılıb. Borular Yunanıstan "Corinth Pipeworks" şirkəti və Almaniyanın "Salzgitter Mannesmann" şirkətində istehsal edilib.

Qeyd edək ki, TAP qaz boru kəməri layihəsinin 57 faizi icra edilib. Boru kəmərinin keçdiyi ölkələrdə ümumilikdə 5 min 500 nəfər işçi çalışır. TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanın şərqində - Kipoidə, digəri isə Albaniyanın qərbində - Fierdə olmaqla ümumilikdə iki kompressor stansiyasının tikintisi davam etdirilir. Həmçinin Albaniyanın şərqində Bilisht regionuna yaxın ərazidə bir ölçmə stansiyasının inşası aparılır.

TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"-dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# İTALİYADA AZƏRBAYCANIN İPƏK YOLUNUN BƏRPASINA VERDİYİ TÖHFƏLƏRDƏN DANIŞILIB








***Roma şəhərində Türk Mədəniyyət Mərkəzi - Yunus Əmrə İnstitutunun İtaliya təmsilçiliyi, "Fondazione Ugo Spirito e Renzo De Felice" Fondu və "Eurosis Consulting" şirkətinin birgə təşkilatçılığı ilə "Yeni İpək yolu: İqtisadi və mədəni şəbəkənin qurulması" mövzusunda konfrans keçirilib.***

Tədbirin açılış mərasimində çıxış edən Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə İpək yolunun bərpasında Azərbaycanın rolundan danışıb, ölkəmizin Şərqlə Qərb arasında strateji körpü rolu oynadığını qeyd edib.

Diplomat Azərbaycanın nəqliyyat potensialı barədə məlumat verərək Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, bu yaxınlarda açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu kəmərinin, eləcə də ölkəmizin nəqliyyat infrastrukturun modernləşməsi istiqamətində həyata keçirilən layihələrin əhəmiyyətindən söz açıb.

Ölkəmizin təşəbbüsü ilə İpək yolu üzərində reallaşdırılmış və reallaşdırılmaqda olan neft-qaz kəmərləri layihələri barədə məlumat verən səfir bu xüsusda Azərbaycan qazını Avropaya daşıyacaq Cənub Qaz Dəhlizinin strateji önəmini vurğulayıb.

Səfir İpək yolunun Şərq ilə Qərb arasında iqtisadi və ticarət əlaqələrini dərinləşdirməsi ilə yanaşı, universal dəyərlərin təşviqi, müxtəlif mədəniyyətlərin vəhdəti üçün də əhəmiyyətli olduğunu deyib. O, Azərbaycanın əsrlərboyu milli mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanındığı və dünyada mədəniyyətlər və sivilizasiyalararası dialoqun təşviqindəki rolu barədə məlumat verib.

M.Əhmədzadə regionda təhlükəsizlik məsələlərinin nəzərə alınmasının vacibliyini də qeyd edib, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün regionda sülh və sabitliyə təhdid olduğunu bildirib.

Tədbirdə iştirak edən Beynəlxalq Türk Mədəniyyət və İrsi Fondunun beynəlxalq münasibətlər üzrə katibi Rüstəm Məmmədov türkdilli xalqların mədəniyyətinin və irsinin öyrənilməsi, qorunması və təbliği istiqamətində Fondun fəaliyyəti, həyata keçirdiyi tədbirlər və layihələr barədə məlumat verib. Eyni zamanda, tədbirin mövzusu olan İpək yolu ilə bağlı Fondun apardığı işlər və bununla əlaqədar gələcəkdə nəzərdə tutulan tədbirlərə də toxunub. O, İpək yolu üzərində mədəni aspektlər barədə məlumat verərək, bu xüsusda türkdilli ölkələrin daim vacib rol oynadığını və öz töhfələrini verdiyini deyib. Azərbaycanın mədəniyyətlərarası dialoqda mühüm rolunu vurğulayan R.Məmmədov bir çox mühüm mədəni abidələrin yerləşdiyi ərazilərimizin hazırda Ermənistanın işğalı altında olması faktlarını diqqətə çatdırıb. O, ümumilikdə İpək yolunun bərpasında əməkdaşlığın vacibliyini, burada mədəni mübadilənin və mədəniyyətlərarası dialoqun başlıca rol oynadığını vurğulayıb, Beynəlxalq Türk Mədəniyyət və İrsi Fondunun bununla bağlı əməkdaşlığa hazır olduğunu, gələcəkdə də bu məqsəd istiqamətində fəaliyyət göstərəcəyini qeyd edib.

Tədbir iqtisadiyyat və mədəniyyət sahələrində əməkdaşlığı əhatə edən sessiyalarla davam edib və həmin sessiyalarda Azərbaycan-İtaliya əlaqələrinə də toxunulub.

İqtisadiyyat sahəsinə aid sessiyada çıxış edən Azərbaycan–İtaliya Ticarət Palatasının prezidenti Manuela Traldi İtaliya və Azərbaycan arasında ticari-iqtisadi sahədə əməkdaşlıq barədə danışıb.

Mədəniyyət sahəsinə aid sessiyada çıxış edən "La Sapienza" Universitetinin professoru Daniel Pommier İtaliya və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq, təhsil ocaqlarının əlaqələri haqqında söhbət açıb.

***Asiman Əsədov***



## İTALİYADA BATMAQ TƏHLÜKƏSİ İLƏ ÜZLƏŞƏN 600-Ə YAXIN MİQRANT XİLAS EDİLİB

***İtaliya Sahil Mühafizəsi Xidməti Avropaya keçməyə çalışarkən batmaq təhlükəsi ilə üzləşən 600-ə yaxın miqrantı xilas edib.***

Xilasetmə əməliyyat 36 saata yaxın davam edib.

Xilas edilənlər Palermo şəhərinə gətirilib.

Qeyd edək ki, bu ilin sentyabrında Yunanıstanın Krit və Lesbos adaları yaxınlığında 210, avqustunda isə İspaniya sahillərində 600 qeyri-qanuni miqrant xilas edilmişdi.

## "YAMAL LNG" LAYİHƏSİ ÜZRƏ İLK MAYE QAZ PARTİYASININ DAŞINMASI NOYABRDA REALLAŞACAQ




***Rusiyanın "Yamal LNG" mayeləşdirilmiş təbii qaz (LNG) layihəsi üzrə ilk LNG partiyasının daşınması noyabrda həyata keçiriləcək.***

"ria.ru" xəbər verir ki, bu barədə "Yamal LNG" layihəsinin əsas səhmdarı olan Rusiyanın ən iri özəl qaz istehsalçısı "Novatek" şirkətin nümayəndələrinin görüşü zamanı bildirilib. LNG daşımaları "Sabetta" limanından həyata keçiriləcək. Dekabrda daha 4 LNG partiyasının daşınması nəzərdə tutulur. 2018-ci ildə isə bir ayda ümumilikdə 10 LNG partiyasının daşınmasının həyata keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, hava temperaturunun mənfi 50 dərəcəyə çatdığı, Rusiyanın Şimal Qütbündəki Yamal yarımadasında yerləşən Sabetta qəsəbəsində reallaşdırılacaq "Yamal" LNG layihəsi qütbdə həyata keçirilən ilk LNG müəssisəsi olacaq. "Yamal" LNG layihəsinin təxminən 2 ilə başa çatdırılması nəzərdə tutulur.

Dünyanın ən böyük sənaye müəssisələrdən biri olacaq, eyni zamanda, ilk dəfə buzqıran tankerlərin istifadə ediləcəyi bu böyük layihə üzrə hər biri illik 5,5 milyon ton LNG istehsal etmək gücünə malik üç hissədən ibarət zavod inşa ediləcək. Layihə tamamlandıqdan sonra buranın ümumi gücü ildə 16,5 milyon tona çatacaq.

## PAYIZ TƏTİLİ NOYABRIN 16-DAN 20-DƏK MÜƏYYƏNLƏŞDİRİLİB



***Ümumtəhsil məktəblərində payız tətili noyabrın 16-dan 20-dək müəyyənləşdirilib.***

Təhsil Nazirliyindən bildiriblər ki, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"nə əsasən, dərs ili ərzində beş gün payız tətili (noyabrın 16-dan 20-dək) müəyyənləşdirilib. Həmin tətil günləri bütün ümumtəhsil məktəblərinə aiddir.

2017-2018-ci dərs ilində həm beşgünlük, həm də altıgünlük iş həftəsi ilə işləyən ümumtəhsil məktəblərində tətildən sonra ilk dərs günü noyabrın 21-də olacaq.

## AZƏRBAYCAN ƏHALİSİNİN SAYI 9 MİLYON 867 MİN 250 NƏFƏRƏ ÇATIB



***Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 57 min 269 nəfər və ya 0,6 faiz artaraq bu il sentyabr ayının 1-i vəziyyətinə 9 milyon 867 min 250 nəfərə çatıb.***

Dövlət Statistika Komitəsindən bildirilib ki, əhalinin bir kvadratkilometrə düşən sıxlığı 114 nəfər olub. Əhalinin ümumi sayının 53 faizini şəhər, 47 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür.

Cari ilin yanvar-avqust ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən ölkədə 95 min 395, yaxud hər gün orta hesabla 393 doğulmuş körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,7 təşkil edib. Doğulan körpələrin 53 faizi oğlan, 47 faizi isə qız uşaqlarıdır. Doğulanlardan 1712-si əkiz, 33-ü üçəmdir. Doğulan körpələr üçün 75,2 yaş, o cümlədən oğlanlar üçün 72,8 yaş, qızlar üçün 77,6 yaş ömür uzunluğu gözlənilir.

Hazırda ölkədə əhalinin təkrar istehsalı təmin olunaraq uşaq doğmaq qabiliyyətinə malik olan hər bir qadına bütün ömrü boyu 2 uşaq düşür.

Cari ilin yanvar-avqust ayları ərzində ölkədə 39 min 4 ölüm halı qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 6 təşkil edib.

Bu ilin 8 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 40 min 256 nikah və 9 min 787 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,2, boşanmaların sayı isə 1,5 olub.

Cari ilin yanvar-avqust ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2 min 80 nəfər Azərbaycana gələn, 1202 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 878 nəfər təşkil edib.

## KARİB DƏNİZİNDƏ MİQRANTLARI DAŞIYAN QAYIQ BATIB



***Haitidən olan miqrantları daşıyan qayıq Karıb dənizindəki Tortyu adası yaxınlığında batıb, 40-dan çox insan itkin düşmüş sayılır.***

Haiti Libre internet-portalının yaydığı məlumata görə, qayıq bazar günü qəzaya uğrayıb. Xilasedicilər sudan 7 miqrantı çıxara biliblər. Onların üçü xəstəxanaya yerləşdirilib. Şahidlər qayıqda 50-yə yaxın miqrantın olduğunu deyiblər. Yerli mülki müdafiə idarəsindən bildirilib ki, onlar qanunsuz olaraq Providensiales adasına getməyə cəhd göstəriblər.

Hakimiyyət orqanları axtarış-xilasetmə əməliyyatlarını davam etdirirlər.

## "ÜZƏN SARAY" MÜBAHİSƏSİ



***Böyük Britaniya kraliçası II Elizabet üçün tikilməsi nəzərdə tutulan 100 milyon funt-sterlinq dəyərində yaxta mübahisələr doğurub. Daily Telegraph qəzetinin yaydığı məlumata görə, bəzi nazirlər 104 metrlik özəl yaxtanın düzəldilməsinə razılıq veriblər.***

Anadolu informasiya agentliyi xəbər verir ki, "üzən saray" adlandırılan yaxta 34 yerlikdir. Orada kraliçanı mühafizə edəcək dəniz piyadaları ilə yanaşı, 125 nəfərlik heyət də xidmət göstərəcək. Yüz nəfərlik toplantı salonu, habelə helikopter meydançası olacaq yaxta dənizdə 45 gün fasiləsiz qalaraq, 6 min mil məsafə qət edə biləcək. Yaxtanın illik istismarının 10 milyon funt-sterlinqə başa gələcəyi gözlənilir.

Hələ 1997-ci ildə tamamlanmış yaxta layihəsi o vaxt hakimiyyətə gələn Toni Bleyer tərəfindən təxirə salınmışdı. Ötən ilin martında yenidən gündəmə gələn layihə xarici işlər naziri Boris Consonun da dəstəyini alıb. O, kraliçanın dəbdəbəli yaxtasının ölkənin imicinə güclü təsir göstərəcəyini bildirməklə yanaşı, layihənin dövlət vəsaiti ilə deyil, özəl ianələr hesabına reallaşmasının məqsədəmüvafiq olduğunu deyib.

## XƏZƏR DƏNİZİNİN SƏVİYYƏSİNİN HAZIRDA BİR QƏDƏR DÜŞMƏSİ EKSTREMAL HAL DEYİL



***Apardığımız kompleks araşdırmalar bir neçə onillikdən sonra Xəzər dənizini nələr gözlədiyini dəqiq proqnozlaşdırmağa imkan verəcək. Belə bir təhlükə var ki, Azərbaycan torpaqlarının bir hissəsi səhralaşmağa məruz qala bilər. Qəribə də olsa bu, Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə bağlıdır.***

Bu barədə AMEA Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov AZƏRTAC-a məlumat verib.

Alim Xəzər dənizinin Xəzəryanı ölkələr və Azərbaycan üçün əhəmiyyəti, hazırkı vəziyyəti və gələcək taleyi ilə bağlı fikirlərini bölüşüb: "Məlumdur ki, Xəzərin səviyyəsi adətən ildə 30-40 santimetrə qədər qalxıb enir. Buna səbəb dənizə tökülən çayların suyu, dəniz səthindən suyun buxarlanmasıdır. 1837-ci ildən Xəzərin səviyyəsi ilə bağlı müşahidələr aparılır. Məlum olub ki, dəniz səviyyəsinin ciddi dəyişmələri 11 il dövriliklə baş verir. Fikrimizcə, bu, günəşin aktivlik dövrləri ilə bağlıdır. Hesab edirik ki, Xəzər dənizinin səviyyəsinin qalxması tezliklə dayanacaq və kiçik tərəddüdlərlə sabitləşmə dövrü başlanacaq."

## RƏQƏMSAL TİCARƏT QOVŞAĞI BÖYÜK İPƏK YOLU ÜZƏRİNDƏ RƏQƏMSAL MƏKANIN YARADILMASI BAXIMINDAN ƏHƏMİYYƏTLİDİR

***Rəqəmsal Ticarət Qovşağı Böyük İpək Yolu üzərində rəqəmsal məkanın yaradılması baxımından əhəmiyyətlidir.***

Bunu oktyabrın 19-da Azərbaycan Rəqəmsal Ticarət Qovşağına dair keçirilən ilk beynəlxalq konfransda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı deyib. Bildirib ki, konfransın keçirilməsində məqsəd rəqəmsal ticarət mərkəzinin infrastrukturuna xüsusi diqqət yetirərək, transsərhəd iqtisadi əlaqələrin, elektron xidmətlərin və yeni iş imkanlarının perspektivlərini müzakirə etməkdir.

"Rəqəmsal Ticarət Qovşağı elektron ticarət və elektron kommersiya sahəsində dövlət-özəl əməkdaşlığı üçün gözəl nümunədir. Rəqəmsal Ticarət Qovşağı Böyük İpək Yolu üzərində rəqəmsal məkanın, eyni zamanda, Avropa coğrafiyasında vahid elektron məkanın yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Rəqəmsal Ticarət Qovşağı müsəlman dünyasında elektron iqtisadiyyatın inkişafı üçün də çox əhəmiyyətlidir. ISESKO ilə Rəqəmsal Ticarət Qovşağı arasında əməkdaşlığa dair memorandum imzalanıb. Beləliklə, bu gün həm Avropa İttifaqı, həm də Rusiya ilə imzaların qarşılıqlı tanınması, transsərhəd elektron iqtisadiyyatın inkişafı üçün imzalanmış anlaşma memorandumları Azərbaycanın rəqəmsal ticarət mövqeyini gücləndirəcək", - deyə V.Qasımlı qeyd edib.

Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi xidmətinin sektor müdiri Elxan Mikayılov diqqətə çatdırıb ki, Azərbaycanda Rəqəmsal Ticarət Qovşağının yaradılması beynəlxalq ticarətə inteqrasiyanın yeni bir mərhələsidir. Belə bir qovşağın yaradılması Prezident İlham Əliyevin ölkəmizdə apardığı məntiqi siyasətin uğurlu nəticəsidir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirilir ki, bunlardan biri də "Azexport" portalının yaradılmasıdır. Portala 50-dən çox ölkədən 300 milyon dollardan artıq sifarişlər daxil olur. "Azexport"a təkcə Azərbaycan istehsalçıları deyil, qonşu ölkələrin istehsalçıları da qeydiyyatdan keçməyə maraq göstərirlər.

Konfrans panel iclaslarla işini davam etdirib.

Qeyd edək ki, Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı Prezident İlham Əliyevin 2017-ci il fevralın 22-də imzaladığı "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycanın mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı əsasında yaradılıb. Rəqəmsal Ticarət Qovşağının operatoru İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzidir.



## POÇT BAĞLAMALARINI ROBOT-POÇTALYONLAR ÇATDIRACAQ

Bad-Hersfeld şəhərinin meri eksperimental infrastruktur layihəsinə yaşıl işıq yandırıb. Yaxın altı həftə ərzində DHL çatdırma xidmətinin poçtalyon və əməkdaşları robotlarla birgə işləməyə başlayacaq. Avtonom işləyən maşınlar şəhərin küçələrində sərbəst hərəkət edərək bağlamaları çatdıracaq.

“techcult.ru” saytı xəbər verir ki, DHL şirkəti innovasiya və cəsarətli qərarlara meyil göstərir. Bu ilin payızında şirkətdə avtonom maşınlar parkının yaradılmasına start verilib və ilk olaraq “PostBOT” və “Parcelcopter” robotları hazırlanıb. Onların biri uçur, digəri yerdə hərəkət edir.

“PostBOT” dronu 150 kiloqram yükqaldırma qabiliyyətinə malikdir və ərazi üzrə istiqamətlənmə sistemi ilə təchiz edilib: robot ilk dəfə poçtalyonun ayaqlarına baxaraq marşrutu izləyir, bundan sonra həmin yolu sərbəst gedə bilir. Hündürlüyü 150 santimetr olan robotun sürəti saatda 6 kilometrdir. Onun əsas vəzifəsi poçt bağlamasını göstərilən koordinatlar üzrə çatdırmaqdır.

## RƏSM ƏSƏRİNDƏ QEYRİ-ADİ KÜRƏNİN SİRRİ AÇILIB



***Amerikalı jurnalist Uolter Ayzekson Leonardo da Vinçinin həyatına həsr etdiyi əsərində dahi rəssamın “Dünyanın xilaskarı” rəsmində Məsihin əlində tutduğu şəffaf kürənin təyinatını tapıb.***

“The Guardian” qəzeti xəbər verir ki, “Dünyanın xilaskarı” rəsmi da Vinçinin şəxsi kolleksiyada saxlanılan yeganə əsəridir. Noyabr ayında rəsm “Christie’s” satış evində hərraca çıxarılacaq. Onun qiyməti 100 milyon dollardan başlayacaq ki, bu da onu rəssamın ən bahalı əsəri edəcək.

“Kürə və ya obyektiv şəklində olan sərt şüşə və ya kristal böyüdülən, tərsə çevrilən və əks görüntü yaradır. Lakin bunun yerinə Leonardo da Vinçi kürəni daxilindən keçən işıq şüasını sındırmayan və təhrif etməyən içiboş şüşə şar kimi təsvir edib”, - deyə Ayzekson yazıb.

Onun sözlərinə görə, əgər da Vinçi şüşənin əmələ gətirdiyi təhrifləri dəqiq təsvir etsəydi, əlin kürənin arxa hissəsində görünən hissəsi kiçildilmiş və ya böyüdülmüş görünəcəkdi. Jurnalistin fikrincə bu, çox qəribə səslənir, çünki rəssam “optika və işıq şüası sahəsinə həddən artıq maraq göstərib”.

“Ola bilsin da Vinçi bu şəkildə Məsihə və onun kürəsinə möcüzəli xüsusiyyətlər verməyə çalışıb”, - deyə Ayzekson düşünür.

Uzun illər hesab olunurdu ki, bu rəsm əsəri dahi rəssamın şagirdlərinin biri tərəfindən çəkilib. Lakin 2013-cü ildə aparılan analiz əsərin da Vinçiyə məxsus olduğunu sübut edib.



## STRESS QADINLAR ÜÇÜN DAHA TƏHLÜKƏLİDİR

***Stressin nəticələri kişilərlə müqayisədə qadınlara daha dramatik təsir edir. Alimlər aşkar ediblər ki, zəif cinsin nümayəndələrinin orqanizmində stresslə əlaqədar elə neqativ proseslər yaranır ki, əks cinsin nümayəndələrində bununla rastlaşmaq olmur.***

Rambler/Doktor saytı xəbər verir ki, ABŞ-ın Briqama Yanqa Universitetinin əməkdaşları apardıqları tədqiqat nəticəsində müasir cəmiyyətdə qadınların keçirdikləri stress, depressiya və həyəcanlı hadisələrdən kişilərə nisbətən daha çox əzab çəkdiklərini təsdiq ediblər. Onlar həmin fenomenin səbəblərini açıqlayıblar.

Tədqiqatın müəllifləri belə qənaətə gəliblər ki, kişilərdən fərqli olaraq stressin təsiri altında qadınlarda bağırsaq bakteriyalarının tərkibi dəyişilir. "Kişi və qadın orqanizmində bağırsaq mikrobiomu stressə müxtəlif cür reaksiya verir", - deyə layihənin müəllifi, professor Laura Bridcuoter qeyd edib.

Siçanlar üzərində aparılan təcrübə zamanı onların qəfil və qorxulu səsləri zamanı keçirdikləri stress tədqiqatçıları belə qənaətə gəlməyə əsas verib. Nəticədə stress keçirən dişi siçanların bağırsaq bakteriyalarında dəyişiklik baş verməsi aşkar olunub.

Mütəxəssislərin dediyinə görə, stress zamanı qadın orqanizmində daha çox faydalı bakteriya məhv olur və eynən yağlı qidalar qəbul edənlərdə olduğu kimi işləməyə başlayır.

## ƏN SÜRƏTLİ MAŞIN-AMFİBİYA YARADIBLAR

***Şimali Çinin Sənaye Birliyi olan "Norinco Group" şirkəti dünyada ən sürətli maşın-amfibiya yaradıb. Çəkisi 5,5 ton olan nəqliyyat vasitəsi suda sürətini saatda 50 kilometrədək artıra bilir.***



"vistanews.ru" xəbər verir ki, maşının adı hələlik gizli saxlanılan baş konstruktorun bəyanatına əsasən, nəqliyyat vasitəsini hazırlayanlar onun çəki təsirini minimuma endirməyə və hidravlik müqavimətini azaltmağa müvəffəq olublar. Bu, nəqliyyat vasitəsinə həm quruda, həm də suda yüksək sürətlə hərəkət etməyə imkan verir. Maşının bütün aparıcı və əsas texnologiyaları çinli mühəndislər tərəfindən "sıfırdan" hazırlanıb.

Hazırda bu, ən sürətli maşındır və dünyada analoqu demək olar ki yoxdur.

## “AMAZON” ŞİRKƏTİ SUKEÇİRMƏZ BUKRİDER TƏQDİM EDİB

***“Amazon” şirkəti “Kindle” seriyasının 10 illiyi münasibətilə ilk sukeçirməz bukriderini təqdim edib. “Kindle Oasis” adlı yeni qurğu “IPX8” müdafiə sisteminə malikdir ki, bu da qurğunu 1 metr dərinliyində suda 30 dəqiqə saxlamağa imkan verir.***




“hitech.vesti.ru” saytı xəbər verir ki, “Oasis” modeli görünüşcə ötən il təqdim olunmuş eyniadlı qabaqcıl modeldən az fərqlənir. Ekranın diaqonalı 7 düym təşkil edir. 2016-cı ilin bukriderindən fərqli olaraq yeni qurğuya akkumulyatorun işləmə müddətini artıran maqnit örtük qoşmaq olmaz. Həmçinin batareyanın ölçüsü böyüdülüb, lakin korpusun qalınlığı olduğu kimi (3,4 millimetr) saxlanılıb.

Ekranın sıxlığı əvvəlki kimi (1düym üçün 300 piksel) saxlanılıb, ancaq çoxsaylı işıq diodları sayəsində təsvir daha parlaq olub. Həmçinin “Kindle Oasis” modeli işığın parlaqlığını avtomatik tənzimləyən işıqlanma dərəcəsi datçiki, səhifələri çevirmək üçün fiziki düymələr, “Wi-Fi” və “4G LTE” modulları ilə təchiz edilib.

Cari ilin oktyabrında bukriderin tədarükünə başlanılacaq. Səkkiz giqabayt yaddaşa malik versiyanın qiyməti 250 dollar təşkil edəcək.

## SİQARET TƏKCƏ PUL İTKİSİ DEYİL...

***Bər-bəzəkli qutuların üzərində yazılmış "Siqaret çəkmək sağlamlığa ziyandır" xəbərdarlığına baxmayaraq acı tütün tüstüsünü ciyərlərinə sümürənlər xoşagəlməz bəlanın girdabından qurtula bilmirlər. Son vaxtlar tütünlə mübarizə tədbirləri barədə ən yüksək dairələrdə aparılan müzakirə və qəbul edilən qanunlar da həmin narahatlıq hissindən yaranıb. Hər il mayın 31-nin Dünya tütünsüz gün keçirilməsi də onunla mübarizənin necə əhəmiyyətli və vacib məsələ olduğunu ortaya qoyur.***

Tütün və tütün tüstüsü 3 min kimyəvi birləşmədən ibarətdir və onlardan 60-dan çoxu kanserogen maddələrdir. Tədqiqatlar sübut edib ki, kanserogen birləşmələr hüceyrələri genetik səviyyədə zədələyir, şişlərin yaranmasına səbəb olur. Siqaret çəkmək tənəffüs orqanlarının xəstəliyinə- pnevmoniya, xroniki bronxit və emfizemaya aparıb çıxarır. Kliniki araşdırmalar onu göstərir ki, siqaret çəkənlərin dərisi çəkməyənlərə nisbətən daha tez qocalır, hətta 40 yaşlı siqaret çəkənlə 70 yaşlı siqaret çəkməyənin dərisi eyni struktura malik olur. Tütünün tərkibində olan karbonmonooksid, nikotin, qətran kimi maddələr ağciyərlərin fəaliyyətini pozur, oksigen çatışmazlığı nəticəsində ürək tutması ehtimalını artırır. Ağzı qoxusu, diş əti xəstəlikləri, dad hissiyyatı və yaddaş zəifliyi, ruhi



gərginlik, yuxusuzluq, xroniki baş ağrıları, katarakta, korluq və digər xəstəliklər məhz siqaretə olan aludəçilikdən yaranır.

Sağlamlığa ciddi ziyan vuran siqaretdən imtina etmək barədə müxtəlif yollar var. Məsələn, Amerika mütəxəssisləri gənc astronavtlar üçün 5 gün ərzində siqaretdən imtina etmək üsulu hazırlayıblar. Onların təklif etdiyi üsulla dörd gün ərzində qida rejiminə əməl olunur, beşinci gün siqaret çəkmək həvəsi itir.

Alman mütəxəssisləri isə bu sahədə bir sıra məsləhətlər verirlər. Onların tövsiyələri daha çox siqareti az çəkməyə və tədricən zərərli vərdişdən uzaqlaşmağa yönəldilib. Həmin məsləhətlər sırasında üstündə kibrit və ya alışqan gəzdirməmək, siqareti göz qabağından uzaq qoymaq, siqaret çəkəndən sonra külqabını gizlətmək, ilk tüstüdən sonra söndürməyi bacarmaq, hər tüstüdən sonra siqareti külqabına qoymaq, çəkilən siqaretlər arasında vaxtı uzatmaq və digər təkliflər yer alır.

Məşhur rus professoru Vladimir Filatov öz təcrübəsində siqaretdən imtina üçün belə bir üsuldan istifadə edib: 1 xörək qaşığı evkalipt yarpaqları üzərinə yarım litr qaynar su tökülərək 1 saat dəmlənilir, dəmləməyə 1 xörək qaşığı qliserin və 1 xörək qaşığı təbii bal əlavə edilir, gündə 7 dəfə dörddəbir stəkan içilir. Müalicə proseduru 1 ay aparılır.

Şübhəsiz ki, təklif olunan üsulların hamısı məqbuldur, lakin ortada iradə və istək olmasa ən gözəl və faydalı üsulun da səmərəsi olmayacaq.

Siqaret zaman və pul itkisidir, ona sərf olunan vaxt və vəsaitə daha faydalı işlər görmək olar. Məsələn, gündə bir qutu, yəni 20 ədəd siqaret çəkən ildə orta hesabla 10-15 sutka itirir. Hər siqaretin çəkilməsi üçün 3 dəqiqə vaxt itirildiyini nəzərə alsaq, bu, ildə 365 saat edir. Vaxt isə çox qiymətlidir. Məşhur Çin filosofu Konfutsi deyirdi ki, pul itirmisənsə, heç nə itirməmisən, vaxt itirmisənsə, çox şey itirmisən, sağlamlığını itirmisənsə, deməli, hər şeyi itirmisən. Hər şeyi itirməmək üçün sonuncu siqaretə son qullabı vurandan sonra onu söndürmək, qutusunu isə əzib zibil qabına atmaq və bütün iradəni toplayaraq ona "əlvida" demək lazımdır.

Elə bu gündən, bu dəqiqədən, bu andan...

*Süleyman Qaradağlı*

## QIŞA HAZIRLIQ: İMMUNİTETİ GÜCLƏNDİRMƏK ÜSULLARI

***Havalar soyuyanda, qış fəsli yaxınlaşanda orqanizmin müqavimət qüvvəsi zəifləyir. Ona görə də havalar soyuyana qədər vitaminlərlə zəngin olan qidalar qəbul etmək, orqanizmin müqavimətini gücləndirmək və immuniteti artırmaq lazımdır.***

Almaniya Təbiət Elmləri Akademiyasının üzvü, həkim-fitoterapevt Elnur Rəhimov bu barədə AZƏRTAC-a deyib: "Qida rasionuna daxil olan bir sıra məhsullar müntəzəm qəbul ediləndə immuniteti gücləndirmək xüsusiyyətinə malikdir. Hər gün süd, kefir, yoqurt, təbii kəsmik və digər ağartı məhsulları qəbul etmək, onların az və ya orta dərəcədə yağlılığı olanları seçmək daha arzuolunandır. Kərə yağından tamamilə imtina etmək olmaz - məsələn, hər səhər kərə yağı ilə olan buterbrodun yeyilməsi vərəm xəstəliyinin profilaktikası üçün çox yaxşı üsul sayılır. Son araşdırmalar nəticəsində müəyyən edilib ki, gün ərzində 150 qram kefir və ya bifidobakteriyalarla zənginləşdirilmiş yoqurt qəbul edilməsi soyuqdəymə ilə xəstələnmə riskini azaldır. Həmin məhsulların təsirindən orqanizmdə viruslarla mübarizədə aktiv şəkildə iştirak edən interferonun səviyyəsi daha da artır.



Lobya bitki mənşəli məhsullar içərisində ən aktiv immunomodulyator, yəni immuniteti stimullaşdıran və möhkəmləndirən maddələrlə zəngin tərəvəzdir. Həm qabıqlı, həm də təmizlənmiş lobyanın tərkibində orqanizmdə interferonun yaranmasına kömək edən çoxlu maddələr var.

Brokkoli, gül kələm, baş kələm, Brüssel kələmi, ağ turp kimi bitkilər betakarotin maddəsi ilə zəngindir. Betakarotin selikli qişaları, xüsusən də ağciyərləri və həzm sistemi üzvlərini xərçəng hüceyrələrindən və sərbəst radikallardan qoruyur.

Qida rasionuna bildirçin yumurtalarının daxil edilməsi immunitet üçün xeyirli hesab olunur. Tərkibindəki A, B qrupu vitaminləri və mikroelementlərin miqdarına görə bildirçin yumurtası toyuq yumurtasını bir neçə dəfə üstələyir, orqanizmdən radionukleidlərin xaric olunmasına kömək edir.

Sarımsaq, soğan, qıtıqotu kökünü tərkibi xeyli miqdarda fitonsidlərlə zəngindir. Fitonsid maddələr immunitetin yüksəldilməsi üçün ən güclü məhsullar hesab olunur.

İmmunitetin gücləndirilməsində dəniz məhsulları -balıq, krevet və s. böyük rol oynayır. Qızıl balıq, ton və digər balıqlarda orqanizm üçün faydalı hesab edilən maddələr - Omeqa-3 yağ turşuları və s. var. Dəniz yosunları qanda xolesterinin miqdarını azaldır, toksinləri neytrallaşdırır və immuniteti yaxşılaşdırır. Onları tərəvəz və göyərtilərdən hazırlanmış təzə salatlara da əlavə etmək olar.

Badam immun sisteminin optimal şəkildə fəaliyyət göstərməsi üçün tələb olunan amin və yağ turşularının ən yaxşı təbii mənbələrindən biridir. Qəbul edilən qidaların tərkibində yarmaların- qarabaşaq, darı, yulaf, qəhvəyi düyü və s. olması, zərərli kimyəvi, radioaktiv maddələr və şlakların orqanzimdən xaric olmasına, immunitetin möhkəmlənməsinə kömək edir.

Emal olunmamış taxıl və dənli bitkilərin tərkibindəki qida maddələrinin miqdarı emal olunanlarla müqayisədə qat-qat artıq olur. Bal, arı südü, arı tozu və propolis təbii immunostimulyatorlar sayılır və onlardan müntəzəm istifadə edilməsi yaxşı nəticə verir.

Limon, portağal, naringi, kivi, itburnu, cəfəri, şüyüd, duza qoyulmuş kələmin tərkibində olan çoxlu miqdarda askorbin turşusu orqanizmi infeksiya, soyuqdəymə və digər zərərli faktorların təsirindən qoruyur. İtburnu və cökə çayı orqanizmə daxil olan antigenlərə qarşı anticisimlərin hazırlanmasını sürətləndirir və tam dəyərli immun hüceyrələrinin hazırlanmasına zəmanət verir”.

## YARIZARAFAT, YARIGERÇƏK

**Bir qadının həyat yoldaşı üçün etdiyi fədakarlıq yüz kişinin bütün fədakarlığını üstələyər.**

**Kişilər özlərindən güclüyə yox, gözəlliyə daha tez təslim olurlar.**

**İmkanların içində ən yaxşısı seçim imkanıdır.**

**Düşündükləri heç vaxt düz çıxmadığı üçün bəziləri düşünmədən danışırlar?**

**Mənim o qədər vaxtım yoxdur ki, əyri yollarla gedim.**

**Dedi-qodu sənətdir? Sənət deyilsə, niyə bəzi adamlar bütün ömür boyu dedi-qodu ilə məşğul olurlar?**

**Günün yarısını satmaq, yarısını da atmaqla məşğul olanlar görəsən nə vaxt dincəlirlər?**

**Birinin bir yalanının qabağına üç yalan çıxaran var.**

**Harda həqiqət varsa, orda heç vaxt basırıq olmur.**

**Mən çox şey görmüşəm, amma indiyədək həqiqəti demək üçün adamların növbəyə düzüldüyünü görməmişəm.**

**Bəziləri yalnız benzin qalxanda cin atına minirlər ki?**

**Şöhrət soyuducu deyil. Ona görə şöhrət yiyələri tez korlanır?**

**Qadının razılığını və ya narazılığını baxışları qədər dəqiq nə ifadə edə bilər?**

**Xoşbəxtliyə aparan yolu bədbəxtin qapısı ağzında axtarmazlar.**

**Həqiqət qiymətləndirilməyən yerdə həqiqəti demək daha böyük cəsarət tələb edir.**

**Bəziləri həqiqətdən lap qripdən qorunduğu kimi qorunur.**

**Ot var, kökünün üstündən başqa, harda desən, bitər.**

**Adam var, yalan danışmaq imkanı nə qədər məhdud olsa, o qədər də yalan danışmaq istəyi artır.**

**“Mən yalan danışmıram” deyənlər həqiqəti də demirlərsə, bəs danışdıqları nədir?**

**Məni bəxtimlə bir oyadarsınız. Bəxtim heç vaxt eyni vaxtda oyaq olmamışıq.**

**Nə həqiqətə yaxşı dost, nə yalana qatı düşmən olmayandan yaxşı heç nə çıxmaz.**

**Mən həqiqət aşiqi deyiləm və bəzi həqiqətləri eşitmək belə istəmirəm. Amma bu, mənim yalana nifrətimi zərrəcə də azaltmır.**

**Yalan danışmaq cəsarət tələb etsəydi, bəlkə bir nəfər belə yalan danışmazdı.**

**Dəriniz istənilən rəngdə ola bilər. Amma üzünüz ağ olmalıdır.**

**Leş gəzdir, söz gəzdirmə.**

**Adam var, görməyəndə darıxırsan, adam var görəndə.**

**Nə gözlədiyini bilməyəndə gözləməyə nə var ki?**

**Gülüş pis şey olmasa da, heç kəsi özünə güldürmə.**

**Keçmişindən gələcəyə pis heç nə götürmə. Onsuz gələcəkdə də pis adam olacaqsa, pis çox şey olacaq.**

**Tanıdığımız adamlar da maskalarını niyə çıxarmırlar?**

**Bostanıma daş atanların sayı xeyli azalıb. Daş çox bahalaşıb ki?**

**Haram yeyənlər halalla haramın fərqini çox yaxşı bilirlər. Yoxsa arabir səhvən də olsa, halal yeyərdilər.**

**Düzünü de, düşmənim də olsan, dediyin həqiqəti təsdiq etməyə hazıram.**

**Niyə iş göstərmək əvəzinə bəziləri daha çox özlərini işgörənlər kimi göstərməyə çalışırlar?**

**Cin deyillər, şeytan deyillər. Ağıllı adamlardan qorxmağa dəyməz.**

**Əriştə yemirəm. Çünki adətən əriştəni özünə umac bişirə bilməyənlər bişirirlər.**

***Rasif TAHİROV***



## AZƏRBAYCAN SAMBOÇUSU SERBİYADA BÜTÜN RƏQİBLƏRİNƏ QALİB GƏLİB

***Serbiyanın Novı-Sad şəhərində yeniyetmələr və gənclər arasında sambo üzrə dünya birinciliyi başa çatıb.***

Yeniyetmələrin yarışında millimizin üzvü İrena Xubulova (52 kq) bütün rəqiblərinə qalib gələrək dünya çempionu adını qazanıb. Digər samboçularımız Yaşar Nəcəfov (60 kq) və Teymur Allahverdiyev (70 kq) isə mundialın bürünc medalına sahib olublar.

Millimiz baş məşqçi Yaqub Abdullayevin rəhbərliyi altında mübarizə aparıb.

## DƏNİZÇİ XANIM KİKBOKSİNQ ÜZRƏ ÇEMPİON OLDU

***21-22 oktyabrda Sərhədçi Olimpiya İdman Kompleksində Azərbaycan Kikboksinq Federasiyası və Bakı Şəhəri Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Kikboksinq üzrə Açıq Bakı Çempionatı keçirilib.***

Yarışın ikinci günündə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Dəniz Nəqliyyat Donanmasının əməkdaşı Fəridə Abdullayeva da öz gücünü sınayıb. Birinci yerə layiq görülən Fəridə böyük qətiyyət nümayiş etdirib. O, ilk dəqiqədən rəqibini nokauta salmağı bacarıb.

Qeyd edək ki, Fəridə Abdullayeva Azərbaycan Dövlət Dəniz Akademiyasının məzunudur. Hazırda Dəniz Nəqliyyat Donanmasının Donanmanın İstismar Xidmətində çalışır.

Fəridə uzun müddət karate idman növü ilə məşğul olub. Kikboksinqə isə cəmi iki aydır başlayıb.





## GİMNASTLARIMIZ TBİLİSİDƏN MEDALLARLA QAYIDIBLAR

***Kişi idman gimnastikası üzrə yığma komandamızın gənc üzvləri Tbilisidə beynəlxalq turnirdə iştirak ediblər.***

Azərbaycan Gimnastika Federasiyası xəbər verir ki, komandamızın hesabına ilk medalı Cavidan Babayev yazdırıb. O, sərbəst hərəkətlərdə 12.766 xal toplayaraq turnirin gümüş medalına sahib olub. İdmançımız növbəti uğurlu çıxışını halqalarda icra edərək bürünc medal (12.666 xal) qazanıb.

Təmsilçilərimizdən Səməd Məmmədli də yarışları 2 medalla başa vurub. Gimnastımız dəstəli atda gümüş (12.966 xal), turnikdə isə bürünc medal (12.200 xal) əldə edib.

Komanda yoldaşlarından geri qalmayan Sərvər Əliyev də yığmamızın hesabına paralel qollarda gümüş medal (13.033 xal) yazdırıb.

Gimnastlarımız yarışı 3 gümüş və 2 bürünc medalla başa vurublar.

## AZƏRBAYCAN TRİATLONÇUSU AÇIQ ASİYA KUBOKUNUN QALİBİDİR

***Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Honq-Konqda təşkil olunan sprint üzrə açıq Asiya kuboku yarışlarında qızıl medal qazanıb.***

İdmançımız 750 metrlik su məsafəsini 9 dəqiqə 33 saniyəyə başa vurub. Ardınca isə 20 kilometrlik velodistansiyanı 29 dəqiqə 14 saniyəyə qət edib. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını R.Pevtsov 15 dəqiqə 9 saniyə nəticə ilə başa vurub. Ümumi hesablamada R.Pevtsov 56 dəqiqə 39 saniyə vaxt göstəricisi ilə birinci yerə layiq görülüb.



Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 1 saat 4 dəqiqə 29 saniyəlik nəticə ilə dördüncü olub.

Xatırladaq ki, carı mövsümdə Pevtsov Las-Palmasda keçirilən Avropa kubokunun qalibi olub, Rabat şəhərində təşkil olunan açıq Afrika kuboku yarışlarında qızıl medal qazanıb. Eyni zamanda Çinin Çenqdu şəhərində keçirilən dünya kubokunda gümüş medala sahib olub. Avropa kuboklarının ümumi hesabında isə Rostislav gümüş medal qazanıb.

## GƏNC CÜDOÇULARIMIZIN DÜNYA BİRİNCİLİYİNDƏ BÖYÜK UĞURLARI



***Dünya birinciliyində iki qızıl və iki gümüş medal qazanan cüdo üzrə Azərbaycan millisi kişilərin fərdi yarışlarında birinci yeri tutub***

Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən gənc cüdoçular arasında dünya birinciliyində fərdi yarışlar başa çatıb. Azərbaycan millisi mundialın sonuncu günündə daha bir uğura imza atıb.

Azərbaycan Cüdo Federasiyasından bildiriblər ki, 100 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Zelim Kotsiyev finala gedən yolda Koreya, Özbəkistan, Avstriya və Tacikistandan olan rəqiblərinə qalib gəlib. Həlledici qarşılaşmada Z.Kotsiyevin rəqibi erməni əsilli Rusiya idmançısı Armen Adamyan olub. Cüdoçumuz bu görüşdə əzmkar mübarizə apararaq qələbə qazanıb. Zaqrebdə Azərbaycan cüdoçusuna dünya birinciliyinin qızıl medalı təqdim olunub və onun şərəfinə dövlət himnimiz səsləndirilib, bayrağımız qaldırılıb.

Bununla da millimiz kişilərin fərdi yarışlarında bütün rəqiblərindən daha yaxşı nəticə göstərərək birinci yeri tutub. Azərbaycan cüdoçuları Yaponiya, Rusiya, Gürcüstan, Braziliya, Almaniya, Özbəkistan, Türkiyə, Fransa, İtaliya və digər milli komandaları qabaqlayıblar. Ümumi komanda hesabında isə gənclərimiz yalnız Yaponiyadan geri qalaraq ikinci olublar.

Xatırladaq ki, dünya çempionatında Hidayət Heydərov (73 kq), Zelim Kotsiyev (100 kq) qızıl, Natiq Qurbanlı (55 kq), Kəramət Hüseynov (60 kq) gümüş və Nəzakət Əzizova (52 kq) bürünc medal əldə ediblər.

Qeyd edək ki, 83 ölkədən 590 idmançının (346 oğlan, 244 qız) mübarizə apardığı birincilikdə Azərbaycan milli komandası 15 cüdoçu (10 oğlan, 5 qız) ilə təmsil olunub.

## SƏRBƏST GÜLƏŞÇİLƏRİMİZ "QİTƏLƏRARASI KUBOK" BEYNƏLXALQ TURNİRİNDƏ FƏRQLƏNİBLƏR





***Dağıstanın Xasavyurt şəhərində sərbəst güləş üzrə sayca 9-cu "Qitələrarası Kubok" beynəlxalq turnirinin qalibləri müəyyənləşib.***

Turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Türkiyə, Polşa, Ruminiya, Peru, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Ukrayna və Belarus idmançıları da iştirak ediblər.

Yığma komandamızın məşqçiləri Arif Abdullayev və Rövşən Hacıyevin rəhbərliyi altında Xasavyurtda Pərviz İbrahimov (57 kq), Əli Rəhimzadə, Qalib Əliyev (hər ikisi 61 kq), Ağahüseyn Mustafayev (65 kq), Coşqun Əzimov, Murtuzəli Müslümov, Qitinomaqomed Hacıyev (hamısı 70 kq), Aleksandr Qostiyev, Hacımurad Məhəmmədsəidov (hər ikisi 86 kq), Aslanbek Alborov (97 kq), Cəmaləddin Məhəmmədov və Səid Həmidov (hər ikisi 125 kq) mübarizə aparıblar.

Beynəlxalq turnirin ilk günündə Azərbaycan pəhləvanları 2 qızıl medal qazanıblar. Turnirdə mübarizə aparan güləşçilərimiz Ağahüseyn Mustafayev (65 kq) və Aslanbek Alborov (97 kq) bütün rəqiblərindən üstün olublar.

"Qitələrarası Kubok"un son günündə isə millimiz 1 gümüş və 1 bürünc medala sahib olub. Turnirdə 125 kiloqram çəki dərəcəsində mübarizə aparan güləşçilərimizdən Cəmaləddin Məhəmmədov ikinci, Səid Həmidov isə üçüncü yerdə qərarlaşıblar.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakimlər Qərib Əliyev, Vaqif Zeynallı, Asif Şirəliyev və Sədi Quliyev təmsil ediblər.

## DÜNYA TAEKVANDO FEDERASİYASININ YENİ REYTİNQ CƏDVƏLİNDƏ İLK ONLUQDA DÖRD AZƏRBAYCAN TAEKVANDOÇUSU YER ALIR





***Dünya Taekvando Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub.***

Oktyabr üçün tərtib olunan siyahıda yığmamızın dörd taekvandoçusu yer alıb. Aktivində 443,16 xalı olan "Rio-2016" Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionumuz Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində ilk sırada yer alır.

Hesabında 472,36 xal olan dünya çempionumuz Milad Beiqi Harçeqani (80 kq) də reytinqdə birincidir.

Altmış səkkiz kiloqram çəki dərəcəsində "Bakı-2015"in və İslamiadanın çempionu 212,20 reytinq xalına malik olan Ayxan Tağızadə isə altıncı pillədədir. Millimizin üzvü avqust reytinqi ilə müqayisədə üç pillə irəliləyib.

Qadınlardan ibarət millimizin üzvü Fəridə Əzizova da (67 kq) ilk onluqdadır. Onun aktivində 213,14 reytinq xalı var.

Qeyd edək ki, reytinq xalları Dünya Taekvando Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvando qaydalarına görə 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.

## "QIZIL TOP" MÜKAFATINA NAMİZƏD 30 FUTBOLÇUNUN ADI AÇIQLANIB

***"France Football" jurnalı 2017-ci ilin yekunlarına əsasən, "Qızıl top"a 30 namizəd futbolçunun adını açıqlayıb.***



Namizədlərin ən çoxu İspaniyanın "Real Madrid" klubundandır.

Mükafata namizəd oyunçuların adları aşağıdakılardır:

Lionel Messi ("Barselona", Argentina), Neymar (PSJ, Braziliya), Luis Suares ("Barselona", Uruqvay), Kriştianu Ronaldu ("Real Madrid", Portuqaliya), Serxio Ramos ("Real Madrid", İspaniya), Marselo ("Real Madrid", Braziliya), Luka Modriç ("Real Madrid", Xorvatiya), Kərim Benzema ("Real Madrid", İspaniya), Paulo Dibala ("Yuventus", Argentina), Eden Azar ("Çelsi", Belçika), Leonardo Bonuççi ("Milan", İtaliya), İsko ("Real Madrid", İspaniya), Toni Kroos ("Real Madrid", Almaniya), Kilian Mbappe (PSJ, Fransa), Canluici Buffon ("Yuventus", İtaliya), Pyer-Emerik Obameyanq ("Borussiya" Dortmund, Almaniya), Edinson Kavani (PSJ, Fransa), Robert Levandovski ("Bavariya", Polşa), Mats Hummels ("Bavariya", Almaniya), Antuan Qrizmann ("Atletiko", Fransa), Sadio Mane ("Liverpul", Seneqal), Radamel Falkao ("Monako", Kolumbiya), Kevin de Breyne ("Mançester Siti", Belçika), David de Xea ("Mançester Yunayted", İspaniya), Harri Keyn ("Tottenhem", İngiltərə), Edin Ceko ("Roma", Bosniya və Herseqovina), Yan Oblak ("Atletiko", Sloveniya), Filippe Koutinyo ("Liverpul", Braziliya), Dris Martens ("Napoli", Belçika) və NQolo Kante ("Çelsi", Fransa).

Qeyd edək ki, 1956-2009-cu illərdə "France Football" jurnalı dünyanın hər yerindən jurnalistlərin səsverməsinin nəticələrinə görə "Qızıl top"u ən yaxşı futbolçuya təqdim edib. 2010-2015-ci illərdə mükafat FIFA ilə birgə təqdim olunub. Lakin keçən ildən etibarən "France Football" jurnalı bu mükafatı tək təqdim etmək hüququnu bərpa edib.

"Qızıl top"un hazırkı sahibi "Real" və Portuqaliya yığmasının hücumçusu Kriştianu Ronaldudur.

## VETERAN GÜLƏŞÇİLƏRİMİZ DÜNYA ÇEMPİONATINDA 1 QIZIL VƏ 1 GÜMÜŞ MEDAL QAZANIBLAR

***Bolqarıstanın Plovdiv şəhərində veteran güləşçilərin dünya çempionatı keçirilib.***




Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, pəhləvanlarımız çempionatı 1 qızıl və 1 gümüş medalla başa vurublar.

Sərbəst güləş yarışlarında "B" divizionunda mübarizə aparan Mayis İbadov (70 kq) ardıcıl olaraq Almaniya, Moldova və Bolqarıstan təmsilçilərinə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə İran idmançısına da qalib gələn Mayis İbadov veteranlar arasında dünya çempionu olub.

Yunan-Roma güləşi yarışlarında "D" divizionunda mübarizə aparan Rövşən İsmayılxanlı (130 kq) isə çempionatı ikinci sırada tamamlayıb. Həlledici görüşdə Polşa idmançısına məğlub olan təmsilçimiz mundialın gümüş medalına yiyələnib.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Natiq Hacıyev təmsil edib.

## FIDE-NİN YENİ TİTULLARI VERİLİB

***Beynəlxalq Şahmat Federasiyasının saytında FIDE-nin yeni titul sahiblərinin (qrossmeysterlərin, ustaların, hakimlərin və təşkilatçıların) siyahısı dərc edilib.***

FIDE-nin Prezident Şurasının Antalyada keçirilən 88-ci iclasında yeni titullara Azərbaycan təmsilçiləri Ülviyyə Fətəliyeva - qadın qrossmeysteri, Abdulla Qədimbəyli - beynəlxalq usta, Məhəmməd Muradlı isə beynəlxalq ustalığa namizəd adına layiq görülüblər.

## ƏFSANƏVİ FUTBOLÇU PREZİDENT SEÇİLİB

***Əfsanəvi futbolçu Corc Vea ölkəsi Liberiyada prezident seçilib.***



Vaxtilə İtaliyanın "Milan" klubunda oynayan 51 yaşlı futbolçu seçkilərdə ən çox səsi qazanan şəxs olub.

Qeyd edək ki, C.Vea 1995-ci ildə FIFA-nın "Qızıl top" mükafatını qazanıb. O, bu mükafata layiq görülən ilk afrikalı futbolçu olub.

Vea 1995-1996-cı və 1997-1998-ci illərdə "Milan" klubu ilə İtaliya çempionluğunu yaşayıb.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3080